## Pənahəli xanın nəslinin nümayəndəsi Qarabağda

İspaniyada doğulan Məhəmmədəli Əkbərov Ağdamı ziyarət edib



**Qarabağ xanlığının qurucusu Pənahəli xanın nəslinin nümayəndəsi Məhəmmədəli Əkbərov Ağdamda olub.**

Şuşada keçirilən Diaspor Gənclərinin III Yay Düşərgəsində iştirak etmək üçün Azərbaycana gələn 21 yaşlı gənc Şuşa səfərindən sonra dünən Ağdamda Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksini və əjdadlarının məzarını ziyarət edib. Daha sonra o, Şah Bulaq qalasında olub. Qeyd edək ki, Məhəmmədəli Əkbərov İspaniyada doğulub böyüyüb.

## Səlim Müslümov dövlətə dəymiş ziyanın 7 milyon manatını ödəyib



**Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun cinayət işi üzrə dövlətə külli miqdarda ziyan dəyib.**

Sabiq nazir həmin məbləğin 6 milyon 974 min manatını ödəyib.

Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində iş üzrə zərərçəkmiş qismində tanınmış Maliyyə Nazirliyinin nümayəndəsi qalan məbləğin də ödənilməsini istəyib.


№ 139 (5661), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 9 avqust 2022-ci il (çərşənbə axşamı)




# Xəbərdarlıq doğruldu

Azərbaycanın bir sıra dövlət qurumu və banklara kiberhücumlar olub

**Bu gün Azərbaycanın bir sıra dövlət qurumu və banklara qarşı genişmiqyaslı kiberhücumlar olub.**

Bu barədə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən məlumat verilib.

*Qeyd edək ki, ki, ötən həftə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi (KİMM) Azərbaycanın elektron informasiya ehtiyatlarına qarşı genişmiqyaslı kiberhücumların gözlənildiyi barədə xəbərdarlıq yaymışdı.*




*Ceyhun Bayramov:*

## Türkiyə ilə Azərbaycanın nail olacağı çox hədəflər var

**Soyuq müharibədən sonra qloballaşma tendensiyası müsbət proseslərlə yanaşı təhdid konsepsiyasını yenidən şəkillәndirərək, genişlətmiş və şaxələndirmişdir.**

Bunu Ankarada XIII Səfirlər Konfransında çıxışı zamanı Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov deyib.

O qeyd edib ki, təhdid termini dövlətlərarası münaqişələrlə məhdudlaşmayaraq, beynəlxalq sərhədləri tanımayaraq, transmilli və beynəlxalq təhdidləri də özündə əks etdirir.

(səh.2)

## Azərbaycan XİN:

“Gürcüstanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik”



**Azərbaycan Gürcüstanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) "Twitter" səhifəsində bildirilib.

"Azərbaycan və Gürcüstan beynəlxalq hüququn fundamental prinsiplərinə hörmət və sadiqlik əsasında strateji tərəfdaşlığı dəstəkləyir", - nazirliyin bəyanatında deyilir.

# "Ermənistan prosesləri doğru qiymətləndirməlidir"

Ərdoğan: “Mən İrəvanın Azərbaycan və Türkiyənin səmimi çağırışlarına qarşılıq verməsi ilə bölgəmizin sabitliyə qovuşacağına inanıram”



**“Beynəlxalq aləm Qarabağda işğala qarşı heç bir addım atmadı”.**

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 13-cü Səfirlər Konfransında deyib. O bildirib ki, 30 il davam edən işğal və soyqırımı siyasəti qarşısında beynəlxalq ictimaiyyət heç bir addım atmayıb: "Döyüş meydanında güclü olmadan, danışıqlar masası arxasında nəyəsə nail olmağın çətinliyi ortadadır. Azərbaycan torpaqlarının işğaldan azad olunması bunun bariz nümunəsidir. Azərbaycanlı qardaşlarımız illər boyu işğalın itkilərinin acısı ilə yaşamağa məcbur oldu. Bu ədalətsizliyə son vermək Türkiyənin dəstəyi ilə Azərbaycan Silahlı Qüvvələrinə nəsib oldu. 44 gün davam edən mübarizə nəticəsində Qarabağ azad edildi və 30 illik işğala son qoyuldu".

(səh.2)

## Azərbaycan vətəndaşlığını qəbul etmək istəyən ermənilərin sayı artacaq

Fazil Mustafa: “Bu tendensiyanın inkişafına imkan yaratmalıyıq”



**Bir neçə erməni Prezident İlham Əliyevə müraciət edərək, Azərbaycan vətəndaşlığına qəbul edilmələrini istəyiblər! Onlardan biri tanınmış bloqer, İstanbulda ailəsi ilə müvəqqəti yaşayan İşxan Verdyandır.**

O, Azərbaycan Respublikası vətəndaşlığının verilməsi xahişi ilə dövlət başçısı İlham Əliyevə müraciət edib. Bununla yanaşı, o, Xankəndi şəhərində yaşamaq niyyətində olduğunu da vurğulayıb.

(səh.5)



## Putin və Paşinyan üçtərəfli bəyanatların icrasını müzakirə ediblər

**Rusiya Prezidenti Vladimir Putin və Ermənistan Baş naziri Nikol Paşinyan arasında telefon danışığı olub. Bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.**

Bildirilib ki, telefon danışığı Ermənistan tərəfinin təşəbbüsü ilə baş tutub.

Rusiya və Ermənistan liderləri Qarabağdakı vəziyyəti, eyni zamanda, Ermənistan-Azərbaycan sərhədində təhlükəsizliyin təmin edilməsi məsələlərini müzakirə ediblər.

Bu kontekstdə tərəflər Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 noyabr 2020-ci il tarixli, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatlarının icrasının vacibliyini təsdiqləyib.

## Daha 121 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 121 yeni yoluxma faktı qeydə alınıb, 113 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 802 060 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 789 147 nəfər müalicə olunaraq sağalıb, 9 761 nəfər vəfat edib, aktiv xəstə sayı 3 152 nəfərdir.

Ölkədə son sutka ərzində 2 424, hazırkı dövrədək isə 7 072 185 test aparılıb.

## Qülləyə çıxaraq özünü atmaq istədi

FHN intihar etmək istəyən şəxsi xilas edib



**Fövqəladə Hallar Nazirliyinin (FHN) ”112” qaynar telefon xəttinə daxil olan məlumata əsasən, Bakı şəhərinin Sabunçu rayonunda 1 nəfər mobil rabitə operatorun qülləsinə çıxaraq intihar etmək istəyini nümayiş etdirib.**

Bu barədə FHN-dən xəbər verilib.

FHN-nin Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri dərhal hadisə yerinə cəlb olunub.

Vətəndaşla aparılan psixoloji söhbətlər nəticəsində o, özünə qəsd etmək fikrindən daşınıb.



## "Elə bilirlər rus dilində təhsil alanlar ağ günə çıxacaq"

Elçin Şıxlı: “Rus dilində Puşkini oxuyub, öz dilində Səməd Vurğunu tanımamaq faciədir”

(səh.4)



## "Qarabağa aparılan diplomatlar xeyrimizə heç nə etməyəcəklər"

Azərbaycana daha çox müxtəlif ölkələrdən gələn turistlərin sayını artırmaq lazımdır

(səh.4)



günə qədər Azərbaycanla məsləhətləşərək bir çox addım atdıq. Radikal erməni dairələrinin cəhdlərinə baxmayaraq, Cənubi Qafqazda davamlı sülhə nail olmaq yolunda önəmli ölçüdə yol qət etdik".

**"Paşinyanla konstruktiv telefon danışığı apardıq"**

Ərdoğan vurğulayıb ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşma prosesi davam edir: "Qurban bayramında Ermənistan Baş naziri Nikol Paşinyanla çox konstruktiv telefon danışığı apardıq. Ermənistanın prosesləri doğru qiymətləndirərək Azərbaycan və Türkiyənin səmimi çağırışlarına qarşılıq verməsi ilə bölgəmizin sabitliyə qovuşacağına inanıram".

# "Ermənistan prosesləri doğru qiymətləndirməlidir"

Ərdoğan: "Mən İrəvanın Azərbaycan və Türkiyənin səmimi çağırışlarına qarşılıq verməsi ilə bölgəmizin sabitliyə qovuşacağına inanıram"

**"Beynəlxalq aləm Qarabağda işğala qarşı heç bir addım atmadı". Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 13-cü Səfirlər Konfransında deyib. O bildirib ki, 30 il davam edən işğal və soyqırımı siyasəti qarşısında beynəlxalq ictimaiyyət heç bir addım atmayıb:**

"Döyüş meydanında güclü olmadan, danışıqlar masası arxasında nəyəsə nail olmağın çətinliyi ortadadır. Azərbaycan torpaqlarının işğaldan azad olunması bunun bariz nümunəsidir. Azərbaycanlı qardaşlarımız illər boyu işğalın itkilərinin acısı ilə yaşamağa məcbur oldu. Bu ədalətsizliyə son vermək Türkiyənin dəstəyi ilə Azərbaycan Silahlı Qüvvələrinə nəsib oldu. 44 gün davam edən mübarizə nəticəsində Qarabağ azad edildi və 30 illik işğala son qoyuldu".

**"Azərbaycanla məsləhətləşərək bir çox addım atdıq"**

Ərdoğan əldə olunan razılaşmalarla Cənubi Qafqazda yeni bir dövrün başladığını da qeyd edib: "Bu tarixi fürsəti qaçırmamaq üçün səylər göstəririk. Bu

**"Taxıl daşınması sazişi" ilə bağlı indiyədək heç bir ciddi problem olmayıb"**

Türkiyə lideri bəyan edib ki, "Taxıl daşınması sazişi" ilə bağlı indiyədək heç bir ciddi problem olmayıb: "Biz taxıl daşınması sazişinin icrasını təmin etdik. Beləliklə, ərzaq böhranının yaxınlaşdığı zaman dünya qida təhlükəsizliyinə töhfə verdik. Rusiya və Ukrayna arasında müharibə yalnız dialoq yolu ilə həll oluna bilər".

**İsmayıl**

## Ceyhun Bayramov:

# Türkiyə ilə Azərbaycanın nail olacağı çox hədəflər var

**Soyuq müharibədən sonra qloballaşma tendensiyası müsbət proseslərlə yanaşı təhdid konsepsiyasını yenidən şəkilləndirərək, genişlətmiş və şaxələndirmişdir.**



Bunu Ankarada XIII Səfirlər Konfransında çıxışı zamanı Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov deyib.

O qeyd edib ki, təhdid termini dövlətlərarası münaqişələrlə məhdudlaşmayaraq, beynəlxalq sərhədləri tanımayaraq, transmilli və beynəlxalq təhdidləri də özündə əks etdirir.

"Hər kəsə aydındır ki, artıq heç bir dövlət ənənəvi yeni növ təhdidlərlə tək başına mübarizə aparmaq iqtidarında deyil. Təsadüfi deyil ki, beynəlxalq münasibətlərin təməlini təşkil edən ərazi bütövlüyü, suverenlik, müstəqillik, bir-birilərinin daxili işlərinə qarışmamaq və digər prinsiplərə bütün ölkələr tərəfindən eyni məsuliyyətlə yanaşılsaydı bu gün bir çox münaqişə və ədalətsizliklərin qarşısı alınardı", - deyə o bildirib.

Nazirin sözlərinə görə, həm iqlim dəyişikliyi, həm də hərbi münaqişələr və onların iqtisadi nəticələri bəşəriyyəti qida qıtlığı kimi qorxunc ssenarilərlə qarşı-qarşıya qoyur: "Bu gün Ukrayna ətrafında yaşanan hadisələr ciddi narahatlıq yaradır və bir daha beynəlxalq sistemin bütün aktorlarına xatırladır ki, dünyanın istənilən bir yerində baş verənlər hər birimizə təsir edir".

Ceyhun Bayramov deyib ki, xarici siyasət və diplomatiya sahəsində Azərbaycanla Türkiyə Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" və Qazi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" deyimləri əsasında inkişaf edir.

O qeyd edib ki, Türkiyənin Azərbaycanı İkinci Qarabağ müharibəsində dəstəkləməsi onun doğru və haqqın yanında durduğunun təzahürü idi.(apa)

Nazir əlavə edib ki, iki ölkənin hələ gedəcək yolu, nail olacağı məqsədləri var: "Təəssüflə qeyd edim ki, son illər beynəlxalq hüquq və normaların icraatında ciddi çatışmazlıqlar var. Beynəlxalq hüquq və normalara, qəbul edilən qərarlara zidd olaraq, 30 il ərazilərı işğal altında olan dövlətin təmsilçisi kimi deyə bilərəm ki, beynəlxalq hüquqa riayət olunmada zəifliklər mövcud beynəlxalq sistemə etimadı sarsıdan birinci və ən əsas amildir".

# Bir gündə 10 dəfə atəşkəs pozulub

Bu, ermənilərin sülhə gedən yolu əngəlləmək niyyətində olduqlarının göstəricisidir

**Son vaxtlar Azərbaycan-Ermənistan dövlət sərhədində, eləcə də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində gərginlik yaşanır. Ötən sutka ərzində erməni silahlı birləşmələri tərəfindən mövqelərimiz ümumilikdə 10 dəfə atəşə tutulub.**



"Azərbaycana başqa yol qoymayıblar. Ölkəmiz öz haqq işinin reallaşdırılmasına nail olacaq"

Bunlardan 6-sı Azərbaycan-Ermənistan dövlət sərhədinin Basarkeçər, Qarakilsə və Gorus rayonları istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər və Laçın rayonları istiqamətlərində yerləşən mövqelərini atəşə tutmaqla baş verib.

Digər 4 hadisə isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər, Goranboy və Füzuli rayonları istiqamətlərində yerləşən mövqelərini snayper tüfəngindən və müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutmaqla qeydə alınıb.

Şəxsi heyət və texnikamızda itki yoxdur.

Bütün hallarda Azərbaycan Ordusunun bölmələri adekvat cavab tədbirləri görür.

**Ermənistanın tez-tez atəşkəsi pozması ilə bağlı "Şərq"ə danışan ehtiyatda olan polkovnik Şair Ramaldanov söyləyib ki, rus hərbçiləri sülhməramlı missiyasını gerçəkləşdirə bilmədiyi üçün terrorçular atəşkəsi pozur:**

"Azərbaycan Vətən müharibəsində haqq işini yerinə yetirərək qanı bahasına düşmənin işğalçı qüvvələrini darmadağın etdi.

44 günlük müharibədən sonra isə aparılan danışıqlar sülhün bərqərar olması ilə müşahidə edilməli idi. Lakin dünyada ikili standartlar regiona təsirini göstərir. Həm sərhəddə, həm də sülhməramlıların yerləşdiyi ərazilərdə yaranan gərginliyin süni səbəbləri çoxdur. Biri də Ermənistanın hərbi siyasi rəhbərliyinin düzgün mövqe tutmamasıdır. Bəlkə də revanşist qüvvələrlə gizli şəkildə əlbirdir. Guya onların aktivliyi ilə atəşkəs pozulur.

Azərbaycan qonşuluq siyasəti yeridir. Beynəlxalq normalara cavab verən təklifini Ermənistana təqdim edib. Təxribata görə Azərbaycan əsgəri də şəhid oldu. Ordumuz əsgərinin qisasını aldı. Əgər revanşist qüvvələr, ermənilər ağlını başına yığmasalar, hədə-qorxu gəlsələr, Prezident İlham Əliyevin dediyi kimi, "Dəmir yumruq" hər zaman hazırdır".

**Ş.Ramaldanovun qənaətincə, ermənilərin 10 dəfə atəşkəsi pozması sülhə gedən yolu əngəlləmək niyyətində olduqlarının göstəricisidir:**

"Qisas" əməliyyatının nəticəsinə əsasən, demək olar, uduzan tərəf ermənilərdir. Azərbaycan bundan sonra da təxribatların qarşısını alacaq, daha təsirli adekvat cavab verəcək.

Sülhməramlı qüvvələr Rusiya Prezidentinin də imzaladığı 9 noyabr üçtərəfli bəyannamənin dördüncü bəndini yerinə yetirmir. Dövlətə, dövlətin qanunlarına tabe olmayan silahlılar dünyada terrorçu adlanır. Azərbaycan ərazisində də təəssüf ki, tərk-silah edilməyən ermənilər var. Cəmiyyəti haqlı səbəbdən narahat edən məsələ dördüncü bənddir. Halbuki, Rusiya Ukraynada öz maraqlarını qorumaqdan ötrü əməliyyatlar aparır. Sülhməramlı kimi Azərbaycanın maraqlarına, bəyannaməyə zidd hərəkət edir. Belə çıxır ki, sülhməramlılar terrorçuları qoruyur. Əgər sülhməramlılar orada olmasaydı, Azərbaycan özü erməniləri tərk-silah edərdi. Sülhməramlıların qanunsuz erməniləri tərk-silah etməyə gücü çatmırsa, Azərbaycan Ordusu yerinə yetirsin.

Sülhməramalıların yerləşdiyi ərazidə atəşkəsin 4 dəfə pozulması bir daha Azərbaycanın qəti addım atmasının vacibliyini artırır. Azərbaycana başqa yol qoymayıblar. Ölkəmiz öz haqq işinin reallaşdırılmasına nail olacaq".

**Aygün Tahir**

# Çox az qaldı

Azərbaycanlılar Laçın şəhərinə də qayıdacaqlar, Zabux kəndinə də

**Ermənilər Laçın şəhəri və Zabux kəndini boşaldırlar. Laçının adını dəyişməyə cəhd edən Ermənistan artıq həmin əraziləri öz halal sahiblərinə qaytarmaq məcburiyyətindədir.**



Sosial şəbəkələrdə, xüsusən də "Twitter"də bir sıra erməni ekspertlər və lobbistlər Laçın şəhərini tərk etmələrini guya öz "tarixi yurdlarından" çıxma kimi təqdim etməyə çalışırlar. Çox da uzaq olmayan tarixə real faktlar ilə nəzər salsaq görərik ki, keçmiş SSRİ dövründə Laçın rayonunda əhalinin son siyahıya alınması 1979-cu ildə həyata keçirilib. Həmin siyahıya almaya əsasən, rayonun 47 min 261 sakini olub. Sovet siyahıya almasına əsasən etnik tərkibə gəldikdə, sakinlərin 44 min 665-i azərbaycanlı, 2 min 437-si kürd olub. Siyahıya alma zamanı rayonda cəmi 34 erməninin yaşadığı qeydə alıb. Bu isə o deməkdir ki, əhalinin 94.5 faizi azərbaycanlı olub.

**Millət vəkili Vüqar Bayramov deyib ki, ümumi əhalinin etnik strukturunda hətta tam rəqəmlə ifadə oluna bilməyən ermənilər Laçın şəhərinə iddia etməkdən çəkinmirdilər.** Deputat xatırladıb ki, 1992-ci ildə Laçın işğal olunanda 65 min 507 sakin məcburi köçkün kimi Azərbaycanın 59 rayon və şəhərlərində məskunlaşdılar: "Zabux kəndi Azərbaycanın ən səfalı yerlərindən hesab olunur. Kəndin etnik tərkibi tarixən hər zaman azərbaycanlılar olub. Hazırda kəndin 600-dən çox sakini məcburi köçkün həyatı yaşasalar da, onların öz doğma ata-baba yurdlarına qayıtmalarına çox az zaman qalıb. Kənd işğal olunandan sonra ermənilər tərəfindən xarabalığa çevrildi. Daha sonra 2003-cü ildə erməni diasporu kənddə kilsə inşa edib. 2013-cü ildən sonra isə ermənilər kənddə qeyri-qanuni məskunlaşmağa başlayıblar. Livanlı erməni biznesmenlərə məxsus "Ari" fondunun maliyyəsilə salınan qəsəbədə 150-dən çox ev tikilib. Zabux kəndi daxil olmaqla bütövlükdə Laçın rayonunun böyük iqtisadi potensialı var. Laçın turizm, sənaye, kənd təsərrüfatı sektorlarında müqayisəli üstünlüyə malikdir. Qısa zamanda rayonun dağıdılmış iqtisadiyyatının bərpası və Azərbaycan iqtisadiyyatına re-inteqrasiyası mümkün olacaq. Azərbaycan bölgədə sülhün əldə edilməsində maraqlıdır. Davamlı sülh sadəcə ölkələrin bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini tanıması halında mümkündür".

**İsmayıl Qocayev**

# Çin Azərbaycana və Ermənistana çağırış edib



**Çin ümid edir ki, Azərbaycan və Ermənistan siyasi dialoq yolu ilə fikir ayrılıqlarını aradan qaldıracaq, həmçinin atəşin dayandırılması barədə əldə olunmuş razılaşmaya riayət edəcək.**

APA "Sputnik Armenia"ya istinadən xəbər verir ki, bu barədə Çin Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Van Venbin keçirdiyi brifinqdə deyib.

O, Azərbaycanın və Ermənistanın Çin üçün dost ölkələr olduğunu da əlavə edib.

# Kreml Ərdoğanın təklifinə cavab verib

Putinlə Zelenski arasında görüşün keçirilməsi üçün zəmin yoxdur

**Hazırda Putinlə Zelenski arasında görüşün keçirilməsi üçün zəmin yoxdur.**

APA TASS-a istinadən xəbər verir ki, bu barədə Kremlin mətbuat katibi Dmitri Peskov Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşlə bağlı təklifinə münasibət bildirərkən deyib.

O, danışıqların nümayəndə heyətlərinin görüşündən sonra mümkün ola biləcəyini qeyd edib.

# Ukraynada "Bayraktar" PUA-ları istehsal edən zavod tikiləcək

**Ukraynada "Bayraktar" PUA-larının istehsalı üçün zavodun tikintisi ilə bağlı Ali Radaya razılaşma göndərilib.**



Bunu Ukrayna mətbuatına müsahibəsində Ukraynanın Türkiyədəki səfiri Vasili Bodnar deyib.

"Zavod tikiləcək. Hökumət ikitərəfli sazişi təsdiqləyib və zavodun özünün tikintisinə dair sazişi ratifikasiya üçün parlamentə göndərib", - deyə diplomat bildirib.

Onun sözlərinə görə, pilotsuz təyyarələr istehsal edən şirkətin sahibi artıq Ukraynada şirkət yaradıb, torpaq sahəsi alıb və müəssisə üçün layihə hazırlayıb, "onu sona qədər həyata keçirmək" niyyətindədir.

"Bu istehsalın Ukraynada edilməsi şirkət sahiblərinin, demək olar ki, şəxsi öhdəliyi idi", - deyə Bodnar əlavə edib.

# Ukrayna hərbi rəhbərlərinə sui-qəsd planlaşdıran killerlər saxlanılıb

**Ukrayna Təhlükəsizlik Xidməti müdafiə naziri Aleksey Reznikov və Baş Kəşfiyyat İdarəsinin rəhbəri Kirill Budanova qarşı sui-qəsd planlaşdıran killerləri saxlayıb.**



APA xəbər verir ki, bu barədə Ukrayna Təhlükəsizlik Xidmətinin saytında yayımlanmış məlumatda bildirilib.

Qeyd olunub ki, qurumun əməkdaşlarının həyata keçirdiyi əməliyyat nəticəsində Ukrayna hərbi-siyasi rəhbərliyinə qarşı sui-qəsd planlaşdıran Rusiya kəşfiyyatçılarından ibarət təxribat və müşahidə qrupu zərərsizləşdirilib.

Vurğulanıb ki, qrupun tapşırığı Reznikov və Budanovla yanaşı, tanınmış ukraynalı aktivistin qətlə yetirilməsi olub. Məlumatda o da qeyd olunub ki, qrup üzvlərinə hər qətlə görə 100-150 min ABŞ dolları ödəniləcəyi vəd edilib.

# "Türkiyə hər zaman Azərbaycanın yanındadı"

## Mövlud Çavuşoğlu: "Biz təxribatlara boyun əyəcək millət və dövlətlər deyilik"

**"Cənubi Qafqazda normallaşma və yaxın qonşuluq əlaqələrinin təsiri məsələsində səmimiyik". Bunu Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu deyib. Nazir bildirib ki, Azərbaycanın Vətən müharibəsində qazandığı Zəfərin yaratdığı uyğun şərtlərdən bölgədə davamlı sülhün bərqərar olmasına çalışırlar:**



"Ermənistanla qarşılıqlı olaraq təyin etdiyimiz xüsusi nümayəndələrimiz görüşlərinə davam edirlər. Bunu Azərbaycan və Ermənistan arasındakı proseslərdən və əsas məqsədimiz olan bütün bölgədə normallaşma və əməkdaşlıq səylərimizdən ayrı düşünmürük. Son günlərdə bölgədə yaşanan gərginlik atəşkəsin nə qədər həssas olduğunu bir daha göstərdi. Əlbəttə, bu müddət ərzində can Azərbaycanımızla həmrəyliyimiz güclənəcək".

**"Türkiyə Rusiya-Ukrayna müharibəsinin təsirlərini dərindən hiss edir"**

Çavuşoğlu deyib ki, Türkiyə Qara dənizdə iki əsas qonşusu olan - Rusiya və Ukrayna arasında gedən müharibənin bütün təsirlərini dərindən hiss edir. O bildirib ki, qısa vaxtda Ukrayna və Rusiya müharibəsindən qaynaqlanan böhranların həll yolu tapılmalıdır: "Hədəfimiz müharibənin ən qısa zamanda Ukraynanın ərazi bütövlüyü və təhlükəsizliyini təmin edəcək ədalətli sülhlə sona çatdırılmasıdır. Buna görə də müharibənin ilk günündən Ukraynaya və beynəlxalq səylərə güclü dəstəklər verdik. Ukrayna ilə Rusiyada arasındakı danışıqların asanlaşdırılması üçün Prezident Rəcəb Tayyib Ərdoğanla birlikdə aktiv siyasət həyata keçirdik. Qara dənizdə hərbi aktivliyin qarşısını Türkiyə almış oldu". Çavuşoğlu qida təhlükəsizliyinin həlli ilə bağlı əldə edilən nəticədə də Türkiyənin önəmini vurğulayıb: "Qara dəniz ortaq evimizdir. Bu haqsız və hüquqsuz savaş bir gün sona çatacaq".

**"Avropa İttifaqının Türkiyəyə ehtiyacı var"**

Türkiyə XİN başçısı qeyd edib ki, Ukrayna və Rusiya arasında vasitəçilik rolunu oynamaq, "Taxıl daşınmasına dair saziş"in İstanbulda imzalanması Türkiyənin güclü xarici siyasətinin bəhrəsidir. O qeyd edib ki, Ukrayna böhranı Türkiyənin dəyərini, dostluğunu bir daha göstərdi: "Ukrayna müharibəsi gec-tez bitəcək, amma ortaq maraqlarımızı təmin etmək ehtiyacı qalacaq". Nazir, Avropa İttifaqının Türkiyənin ona üzv olduğu təqdirdə dünyada real güc mərkəzi ola biləcəyini əlavə edib: "Türkiyə-Aİ münasibətləri bir neçə üzv ölkənin qeyri-obyektiv mövqeyindən daha üstündür və strateji əhəmiyyət kəsb edir. Avropanın Türkiyəyə ehtiyacı var. Türkiyənin isə Avropa qitəsinin təhlükəsizliyinin qorunması məsələsində öhdəliyi var, çünki Türkiyə Avropadır". Bundan əlavə, nazir, Türkiyənin bir çox ölkələrlə üç və dördtərəfli formatda sıx əməkdaşlıq etdiyini qeyd edib. O, həmçinin, Azərbaycan, Qazaxıstan və Özbəkistanla XİN rəhbərləri, nəqliyyat və ticarət nazirləri səviyyəsində olan üçtərəfli əməkdaşlıq mexanizminin vacibliyini vurğulayıb.

**"Azərbaycanın Londondakı səfirliyinə hücum qəbuledilməzdir"**

**Çavuşoğlu Azərbaycanın Londondakı səfirliyinə hücumdan da söz açıb. Vurğulayıb ki, səfirliyə hücum qəbuledilməzdir:** "Ceyhun bəylə (Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovu nəzərdə tutur -red) danışdım. Edə biləcəyimiz bir şey varmı deyə soruşdum. O, hər şeyin nəzarət altına alındığını, bunu törədən bəzi şəxslərin saxlanıldığını dedi. Biz bu cür təxribatlara boyun əyəcək millət və dövlətlər deyilik. "Bir millət, iki dövlətik", hər zaman Azərbaycanın yanındayıq". Bundan başqa, nazir qeyd edib ki, diplomatik missiyaların qorunması Vyana konvensiyasına əsasən ev sahibi olan ölkənin məsuliyyətidir və bu cür təxribatlara yol verməmək üçün daha effektiv tədbirlər görülməlidir.

**İsmayıl**



# Ermənistan bir dövlət kimi intihara hazırlaşır

## "İrəvanın gələcək taleyini onun havadarları yox, Azərbaycan və Türkiyə müəyyən edəcək"

**"Qarabağ işğal altında olduğu zaman Türkiyə haqqın tərəfində idi. Döyüşlər başlayarkən Türkiyə Azərbaycan əsgərini dəstəklədi".**

Bu barədə Ankarada XIII Səfirlər Konfransında çıxışı zamanı Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu deyib. Nazir vurğulayıb ki, qəhrəman Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etdikdən sonra bölgədə, regionda sülh üçün işlərə başlanılıb: "Türkiyə müharibə bitdikdən sonra Qarabağın yenidən qurulmasını dəstəkləyir". XİN başçısı Ermənistanı təxribatlar törətməkdən çəkinməyə çağırıb: "Biz Ermənistana bir daha xəbərdarlıq edirik ki, yeni təxribatlara əl atmasın. Dost da, düşmən də bilsin ki, Azərbaycan heç bir zaman tək deyil".

**Politoloq Azər Qasımov "Şərq"ə bildirib ki, Ermənistanın son hadisələrdən sonra təxribatları təkrarlamasına intihar etmək istəyən insanın psixologiyasına uyğun yanaşmaq lazımdır.** Analitik vurğulayıb ki, Ermənistan könüllü olaraq məhv olmaq yolunu tutub və nəyin bahasına olursa-olsun "arzusuna" çatmaq istəyir: "Azərbaycan dövləti Ermənistan vətəndaşlarını erməni rəhbərlərindən daha çox müdafiə etməyə çalışır. Ordusunun durumu göz önündə olan bir ölkənin dəfələrlə eyni səhvi etməsinin yeganə adı - intihardır. Bu, siyasət yürütməyi bacarmayan, dövlət kimi formalaşa bilməyən və başqalarından asılı olan bir toplumun son çırpınışlarıdır. Türkiyə XİN başçısı Mövlud Çavuşoğlunun Ermənistana xəbərdarlığı əslində onun havadarlarına verilən mesajdır. Nazir demək istəyir ki, Ermənistanı qurban verənlər bu alovun içərisində Azərbaycanı görə bilməyəcəklər. Türkiyə və Azərbaycanın bütün siyasətləri bir-birini tamamlayır. Əgər kimlərsə Ermənistanın əli ilə regionda müharibə çıxaracaqlarını zənn edirlərsə, yanılırlar. Azərbaycan Ermənistanı elə vəziyyətə salıb ki, onların taleyi tükdən asılıdır. İrəvanın gələcək taleyini onun havadarları yox, Azərbaycan və Türkiyə müəyyən edəcək. Əgər Ermənistan normal dövlət kimi regionda "yaşamaq" istəsə, ona şərait yaradılacaq. Yox əgər destruktiv əməllərinə davam etsə, alacağı son zərbə onların sonu, havadarlarının isə peşmanlığı olacaq".

# Rusiyaya savaş dəstəyi...

## Şimali Koreya Ukraynada döyüşmək üçün 100 min əsgər təklif edir



**Rusiya mediasının məlumatına görə, dünyanın 4-cü ən böyük ordusuna sahib olan Şimali Koreya Ukraynanı məğlub etmək üçün Rusiyaya 100 min əsgər təklif edib. Həmçinin, Şimali Koreyanın Donbas regionunun bərpasına kömək etmək üçün mindən çox işçi göndərməyə hazır olduğu açıqlanıb.**

"Şərq" qəzeti Türkiyə mediasına istinadən xəbər verir ki, rusiyalı hərbi ekspert İqor Korotçenko açıqlamasında "100 min Şimali koreyalı könüllünün gəlib münaqişəyə qoşulmağa hazır olduğu barədə məlumatlar var" deyib. Korotçenko Şimali Koreya ordusunun əks-batareya (ən kiçik artilleriya) döyüşündəki zəngin təcrübəsini yüksək qiymətləndirib.

Rusiya rəsmisi Şimali Koreyanın batareyaya qarşı mübarizə sahəsində təcrübəsini yüksək qiymətləndirib. Bununla belə, ABŞ-ın Ukraynaya çoxlu sayda "HIMARS" (Yüksək Mobility Artilleriya Raket Sistemi) bağışlamaq qərarından sonra, effektiv əks-batareya müharibəsi Rusiya ordusu üçün artan əhəmiyyət kəsb edir. Korotçenko vurğulayıb ki, Rusiya Şimali Koreya qoşunlarını və əks batareya təcrübəsini alqışlamalıdır.

**"Şimali Koreya faşist Ukraynaya qarşı mübarizə aparmaq istəyirsə, buna imkan verməliyik"**

Korotçenko bildirib ki, əgər Şimali Koreya Ukrayna faşizmi ilə mübarizə aparmaq üçün beynəlxalq borcunu yerinə yetirməyə hazırdırsa, buna icazə verməlidir: "Şimali Koreya 1,3 milyon aktiv hərbi qulluqçusu ilə dünyanın 4-cü ən böyük ordusuna malikdir. Şimali Koreya 1,3 milyon aktiv hərbi qulluqçusu ilə dünyanın 4-cü ən böyük ordusuna malikdir. Digər tərəfdən, ABŞ-da yerləşən Xarici Əlaqələr Şurasının məlumatına görə, Şimali Koreya ordusu təxminən 1,3 milyon aktiv şəxsi heyətlə dünyanın dördüncü ən böyük ordusuna malikdir. Daha 600 min nəfər orduda ehtiyatda olan əsgər kimi xidmət edir".

Cənubi Koreyanın "Daily NK" qəzetinin məlumatına görə, Şimali Koreya da işçilərə müharibədən sonrakı Ukraynanın bərpasında Rusiyaya kömək etməyi təklif edib. "Daily NK" Rusiya mənbələrinə istinadən xəbər verib ki, Rusiya müharibədə qalib gələrsə, Şimali Koreya Ukraynanın şərqindəki Donbas bölgəsinə mindən çox işçi göndərməyi planlaşdırır. Şimali koreyalı mənbə "Müharibənin hələ bitmədiyini nəzərə alaraq, hökumət vəziyyəti yerində izləmək üçün münasib vaxtda işçilər göndərməyi planlaşdırır" deyib.

**İsmayıl**

Laçın dəhlizinin alternativ yola köçürülməsi Rusiya ilə razılaşdırılıb




# Mesaj bəllidir

## Ermənistana heç bir pay düşmür

**Avqustun 5-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı Şarl Mişel bu günlərdə regionda yaranmış gərginliklə bağlı narahatlığını bildirib.**

O, Brüssel sülh gündəliyinə uyğun olaraq Avropa İttifaqının regionda davamlı sülh və sabitliyin təmin olunması istiqamətində səylərini davam etdirəcəyini vurğulayıb. Prezident qeyd edib ki, Ermənistan Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində növbəti dəfə hərbi təxribat törədib və nəticədə hərbi qulluqçumuz həlak olub. Silahlı Qüvvələrimiz tərəfindən zəruri tədbirlər görülməklə bu təxribatın qarşısının alındığını vurğulayan dövlətimizin başçısı baş vermiş gərginliyə görə bütün məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü bildirib. Ölkə rəhbəri bəyan edib ki, 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarına zidd olaraq Ermənistan Azərbaycanın Qarabağ bölgəsində yerləşmiş qoşunlarını ərazilərimizdən çıxarmayıb. Qanunsuz erməni hərbi birləşmələrinin ərazilərimizdə öz mövcudluğunu davam etdirdiyini deyən dövlət başçısı 2 ilə yaxın müddətdə Ermənistanın öz öhdəliklərini yerinə yetirmədiyini bildirib. Dövlət başçısı vurğulayıb ki, Ermənistan silahlı qüvvələri və qanunsuz erməni hərbi birləşmələrinin ünsürləri torpaqlarımızdan çıxarılmalıdır. Prezident üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq Laçın dəhlizinə alternativ yeni yolun marşrutunun müəyyən edildiyini, işlər bitəndən sonra Rusiya sülhməramlı qüvvələrinin də həmin yola dislokasiya olunacağını vurğulayıb. Telefon söhbəti zamanı Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər barədə müzakirələr aparılıb.

**Siyasi şərhçi Asif Nərimanlı deyib ki, Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə telefon söhbətində iki məqamı xüsusi vurğulayıb. Ekspert bildirib ki, Ermənistan silahlı qüvvələri və qanunsuz erməni hərbi birləşmələrinin ünsürləri torpaqlarımızdan çıxarılmalıdır:** "Bu, Bakının erməni ordusunun qalıqlarının çıxarılması ilə yanaşı, separatçıların qondarma "müdafiə ordusu" adı ilə fəaliyyət göstərən terror qruplarının da tərkisilah edilməsi tələbindən çıxış etdiyi deməkdir. Laçın dəhlizinə alternativ yolun inşasının və tikinti işləri başa çatandan sonra sülhməramlıların bu yola dislokasiya olunacağının Rusiya Müdafiə Nazirliyi ilə razılaşdırılmasıdır. Laçın dəhlizinin alternativ yola köçürülməsinə qarşı çıxan rəsmi İrəvan bunu "üçtərəfli bəyanata əsasən Ermənistan alternativ yolun tikintisinə dair heç bir plana razılıq verməyib" iddiası ilə əsaslandırır. Dövlət başçısı İlham Əliyev Mişel vasitəsilə İrəvana mesaj verir ki, məsələ Rusiya ilə razılaşdırılıb. Bu məsələdə Ermənistana heç bir pay düşmür. Azərbaycan öz ərazisində hansısa addımını Ermənistanla razılaşdırmamalıdır".

**İsmayıl Qocayev**

# Yeni danışıqlarda Ermənistan başqa güzəştlərə məcbur ediləcək

**Azərbaycan Ordusunun nəzarəti altında olan məntəqə və yüksəkliklərin sayı artıb. Bölmələrimiz tərəfindən ərazidə aparılan dəqiqləşdirmələr nəticəsində Buzdux dağı və ətrafındakı yüksəkliklər Azərbaycan Ordusunun nəzarəti altına keçib.**

Müdafiə Nazirliyi açıqlama yayıb ki, bölmələrimiz tərəfindən ərazidə aparılan dəqiqləşdirmələr nəticəsində Azərbaycan Ordusunun nəzarətinə keçən Buzdux dağında Azərbaycanın dövlət bayrağı qaldırılıb.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, anti-terror əməliyyatını sərhəddəki hərbi hərəkətlilik və mövqe irəliləməsi müşayiət etdi. Analitikə görə, Azərbaycan Ordusu Kəlbəcərdəki Buzdux dağı və ətrafındakı yüksəkliklərə nəzarəti ələ keçirib:** "Müdafiə Nazirliyinin açıqlamasından məlum olur ki, Buzdux və ətraf yüksəkliklərin alınması şiddətli silah atışları gücünə olmayıb. Bundan sonra lokal hərbi əməliyyatların davam edəcəyi və bunun silahlı toqquşmalarla müşayiət ediləcəyi də istisna deyil. Sərhəddə hazırda baş verənlər, hərbi əməliyyatdan çox, hərbi-siyasi həmlədir. Növbəti danışıqlar masasının konfiqurasiyasını müəyyən edəcək. Yeni danışıqlarda Ermənistan başqa güzəştlərə məcbur ediləcək. Görünür ki, Azərbaycan dövlətinin Qərbi Zəngəzura aid ortaya qoyduğu konseptual yanaşmanın konkret detalları formalaşır".



Azərbaycan dövlətinin Qərbi Zəngəzura aid ortaya qoyduğu konseptual yanaşmanın konkret detalları formalaşır

**İsmayıl**



## Buzdux dağının nəzarətimizdə olması böyük üstünlükdür

### Bununla biz düşmənin Qarabağda olan qüvvələrini rahatlıqla müşahidə edəcəyik

**Avqustun 6-da bölmələrimiz tərəfindən aparılan dəqiqləşdirmələr nəticəsində Kəlbəcər rayonunun Murovdağ silsiləsində yerləşən Buzdux dağı və ətrafındakı yüksəkliklər Azərbaycan Ordusunun nəzarəti altına keçib.**

*Qarabağ qazisi, hərbi jurnalist Rey Kərimoğlu "Şərq"ə Buzdux dağı və ətrafındakı yüksəkliklərin ölkəmiz üçün strateji əhəmiyyətindən danışıb:* "Buzdux dağı və onun ətrafındakı yüksəkliklər Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin içindədir. Yəni həmin ərazilərin Ermənistanla sərhəd rayonlara aiddiyyəti yoxdur. Bu ərazilər daha çox Qarabağın içinə aiddir. Buzdux dağının nəzarətimizə keçməsi həmin ərazidə müşahidə mövqeyimizi daha da genişləndirir. Bizim düşmənin həmin ətrafdakı hərəkətliliyini aydın şəkildə görməyimizə şərait yaradır. Belə olduqda həmin ərazidə erməni silahlı birləşmələri tərəfindən hansısa təxribat həyata keçirilərsə, rahatlıqla onlara adekvat cavab verə bilərik. Bundan sonra bizə düşmənin Qarabağın içərisindəki əsas qüvvələrinin hərəkətini müşahidə etmək imkanı yaranır".

**Günəş Mərd**

**Ukraynanın Qara dəniz limanlarından taxıl yüklənmiş əlavə iki gəmi yola düşüb. İnfrastruktur naziri Aleksandr Kubrakov hər iki gəminin yola düşdüyünü təsdiqləyib və qeyd edib ki, razılaşmaya üçüncü Ukrayna limanı "Pivdennyi" də daxil edilib.**




# Yola çıxan taxıl dolu gəmilərinin sayı 10-a çatıb

### İstanbul razılaşması ilə təkcə Ukrayna deyil, eyni zamanda Rusiya da qazanclı çıxmış olur

Liman artıq fəaliyyətə başlayıb. Nazir əlavə edib ki, bu limanın fəaliyyətinin bərpası ilə Ukraynanın ümumi taxıl ixracı qabiliyyəti aylıq 3 milyon tona çatacaq. Bununla da Türkiyə və BMT-nin vasitəçiliyi ilə Ukrayna və Rusiya ilə əldə edilmiş "taxıl razılaşması"ndan sonra Ukraynadan yola düşən gəmilərin sayı 10-a çatıb. Qeyd edək ki, sülh dövründə Ukrayna Qara və Azov dənizləri limanları ilə aylıq təxminən 6 milyon ton taxıl ixrac edib.

**Politoloq Samir Hümbətov "Şərq"ə vurğulayıb ki, Rusiya Prezidenti Vladimir Putin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Rusiyanın Soçi şəhərində baş tutan görüşdə bir neçə istiqamət üzrə müzakirələr aparılıb. Ekspertin sözlərinə görə, aparılmış müzakirələrdə diqqəti daha çox cəlb edən məsələlərdən biri Ukrayna taxılının BMT və Türkiyənin təminatı altında dünya bazarlarına çıxarılması məsələsi idi:** "Rusiya prezidenti Ukrayna taxılının dünya bazarlarına çıxarılmasından danışarkən Rusiya taxılının və gübrəsinin də dünya bazarlarına çıxarılmasından məmnuniyyətlə danışdı. Putinin bu çıxışından belə anlaşıldı ki, deməli, İstanbul razılaşmasında təkcə Ukrayna taxılının dünya bazarlarına çıxarılması üçün razılıq əldə edilməyib, eyni zamanda Rusiya taxılının və gübrəsinin də dünya bazarlarına çıxarılması üçün də razılıq əldə edilib. Bu isə o deməkdir ki, İstanbul razılaşması ilə təkcə Ukrayna deyil, eyni zamanda Rusiya da qazanclı çıxmış olur. Məsələnin digər önəmli tərəfi bu anlaşmada Türkiyənin önəmi və oynadığı roldur".

**Siyasi şərhçinin fikrincə, Türkiyə bu anlaşma ilə üç önəmli məqamı əldə etmiş oldu:** "Bu anlaşma ilə təminatçı ölkə olmaq imkanlarının yüksək olduğunu sərgilədi. Həm Rusiya, həm də Ukrayna Türkiyəyə rahat şəkildə etibar etdiyini nümayiş etdirə bilir. Rusiya ona qarşı sanksiyaların yaratdığı çətinliklər qarşısında Türkiyədən ciddi mənada asılılığı qəbul etməyə məcbur oldu. Türkiyə ən çətin məqamda da təkcə özü üçün deyil, eyni zamanda digər dövlətlərin də ərzaq təhlükəsizliyini düşünmək imkanına malikdir. Qeyd edilənləri nəzərə alsaq, bundan sonra hələ uzun müddət həm Rusiya, həm də Ukrayna bəzi məsələlərdə, xüsusilə də xarici ticarət əlaqələrinin fəormalaşdırılmasında Türkiyədən asılı vəziyyətdə qala bilərlər. Türkiyənin isə burada əsas qazancı regionda və dünyada nüfuzunu daha da möhkəmləndirmək, iqtisadi imkanlarını artırmaq və daxili və xarici təhlükəsizliyini təmin etməkdən ibarətdir".

**İsmayıl Qocayev**

# "Elə bilirlər rus dilində təhsil alanlar ağ günə çıxacaq"

### Elçin Şıxlı: "Rus dilində Puşkini oxuyub, öz dilində Səməd Vurğunu tanımamaq faciədir"

**Borçalıdan olan ictimai-siyasi xadim Zəlimxan Məmmədli feysbuk hesabında Qafqazda rus məktəblərinin sayı ilə bağlı status paylaşıb.**

"Borçalı" İctimai Birliyinin sədri yazır: "Azərbaycan rekord vurur. Ermənistanın 40 məktəbində "rus sinfi" var və onların cəmi 3-də təhsil rus dilindədir. Qalan 37 məktəbdə "erməni sinifləri" ilə yanaşı "rus sinifləri" də fəaliyyət göstərir.



Rus dilində təhsil alanların sayı təxmini məlumatlara görə, 9-10 min nəfərdir. Onların 1/3-i milli azlıqların və qarışıq nikahlardan olan uşaqlardır. 1/3-i Rusiya vətəndaşı və ya etnik ruslar, qalanı isə Rusiyada 5-ci sinfi oxuyub, qayıdan ermənilərdir.

Gürcüstanda 2084 orta məktəbin 59-da rusca təhsil almaq imkanı var, 11 məktəb isə tam rusdillidir. Rəsmi statistikaya əsasən, paytaxt Tbilisinin 2 orta məktəbində tədris yalnız rus dilində aparılır. 19 məktəbində rus bölməsi olan paytaxtda 6 min nəfərdən çox şagirdin rus dilində təhsil aldığı vurğulanır.

Azərbaycanda 4,5 min ümumtəhsil məktəbi fəaliyyət göstərir. 342 məktəbdə 120 mindən çox şagird rus dilində oxuyur. 16 məktəbdə dərslər yalnız rus dilində keçilir".

**Azərbaycan Jurnalistlər Birliyinin sədri, "Ayna-Zerkalo" qəzetlərinin baş redaktoru Elçin Şıxlı "Şərq"ə açıqlamasında bildirib ki, sözügedən ölkələrin əhali sayını faiz nisbəti ilə götürsək, digərlərindən bir az çox olarıq:** "Bundan başqa, millətimizin bir çoxunda belə bir düşüncə var ki, rusca bilmək üçün həmin dildə təhsil almaq mütləqdir. Hər zaman insanın mümkün qədər çox dil bilməyinin tərəfdarı olmuşam.

Amma rus bölməsində təhsil alıb, Puşkinin, Lermontovun əsərlərini oxuyub, Dədə Qorquddan, Koroğludan məlumatsız olmaq, Nizamidən bixəbərlik, Səməd Vurğunu tanımamaq faciədir. Həmçinin övladları rus dilində oxuyanların özləri həmin dili bilməyən adamlardır.

Onlar fikirləşir ki, rusların dilində təhsil almaq uşaqların gələcəyini ağ günə çıxardacaq. Müəyyən kütlə isə övladlarını rus dilində oxudub, Rusiyaya köçmək arzusundadır. Orada alver edib, biznes qurub, xoşbəxt olmaq niyyətindədirlər. Amma başa düşmürlər ki, Rusiyada pomidor satmaq hələ ki əlverişlidir.

Sabah isə adıçəkilən dövlət özü dilənçi vəziyyətinə düşəcək. İndinin özündə də yolçudurlar. İbtidai tədris pilləsindən sonra rus bölməsinin yuxarı siniflərinə dərs keçən fənn müəllimləri arasında savadlıların sayı olduqca azdır. Beləliklə, adamlar dili öyrənəcəklər, amma bir mütəxəssis kimi yetişməyəcəklər.

Hazırda bir çoxları uşaqlarını ingilis, türk, fransız məktəblərinə qoyurlar. Faciə deyil, amma millət, əhali olaraq, özümüzə hörmət etməyi öyrənməliyik".

**Sücayət Mehti**




"Milyonlarla turist könüllü lobbiçilik fəaliyyətinin ən yaxşı icraçılarıdır. Onlar geri qayıdarkən öz ailələrinə, yaxınlarına gördüklərini danışacaqlar"

# "Qarabağa aparılan diplomatlar xeyrimizə heç nə etməyəcəklər"

### Azərbaycana daha çox müxtəlif ölkələrdən gələn turistlərin sayını artırmaq lazımdır

**"Latviya-Azərbaycan" kültür assosiasiyasının rəhbəri, Latviya Respublikasının vətəndaşı Faiq Səfərov növbəti dəfə "Şərq"in qonağı olub. Azərbaycana hər səfərində redaksiyamıza baş çəkməyi ənənə halına çevirən Faiq Səfərov qəzetimizə müsahibəsində ötən müddət ərzində görülən işlərdən və diaspora sahəsində həyata keçirilməli olan tədbirdən danışıb.**

F.Səfərov vurğulayıb ki, lobbiçilik fəaliyyətinin daha da gücləndirilməsi və genişləndirilməsi olduqca vacibdir. Diaspora təşkilatının rəhbəri bu sahədə kifayət qədər boşluqların və problemlərin olduğu qənaətindədir. Məlumat üçün deyək ki, "Latviya-Azərbaycan" kültür assosiasiyası 1988-ci il martın 21-də yaradılıb.

**- Faiq müəllim, Azərbaycana nə vaxt gəlmisiniz? Nə qədər müddət burada qalacaqsınız?**

- 2 aydır Azərbaycandayam, hardasa 20-25 gündən sonra, tarixi Vətənimdən, etnik Vətənə qayıdacam. 90 günlük viza almışam. Əvvəlcə onu deyim ki, hər dəfə Azərbaycana, Bakıya gələndə həddindən artıq sevinirəm, qürur duyuram. Çünki Bakı çox gözəl şəhərdir. Gələn gündən paytaxtda gəzirəm, görülən yeni işlərlə tanış oluram, parklarda yaşlı adamlarla söhbətləşirəm. Demək olar görüşdüyüm, söhbət etdiyim əksər insanı diaspora, lobbiçilik haqqında bir məqam narahat edir. Hamı deyir ki, niyə erməni lobbiçiliyi bizdən yaxşı işləyir, yalan səslərini hay-küylə dünyanın hər yerinə çatdırırlar. Əfsuslar ki, bizdə təbliğat işi çox zəifdir, dağınıqdır. Bu ilin aprel ayında Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova Latviyada rəsmi səfərdə idi. Spiker, Riqada parlamentdə, Prezident Aparatında, Nazirlər Kabinetində mühüm görüşlər keçirtdi. Hər üç görüşə məni də dəvət etmişdilər, mən də iştirak edirdim. Pandemiya səbəbindən görüşlərə çox az adam dəvət almışdı. Latviya Seyminin sədri İnara Murnietse ilə yaxın əlaqələrim var. Onunla yaxınlığımdan istifadə edərək, görüş zamanı "Sahibə xanım, bizim Latviyaya xoş gəlmisiniz" dedim. Düzdür, bu yanaşma rəsmi protokoldan kənar olsa da, mənə orada irad bildirilmədi. Onu demək istəyirəm ki, məni belə görüşlərin əksəriyyətinə şəxsən dəvət edirlər. Bu da orada apardığımız düzgün lobbiçilik təbliğatının nəticəsidir. 30 ildən artıqdır Latviya parlamentinin iclaslarında iştirak edirəm. Cənubi Qafqaz xalqlarından sadəcə bizi çağırırlar. Nə gürcülərin, nə də ermənilərin nümayəndəsi iclaslara qatıla bilmir. Latviya Respublikasının Müdafiə naziri Artis Pabriks də Bakıda səfərdə olub. XİN-dən deyirdilər ki, səfirimiz Elnur Sultanov Latviyada yaxşı işləyir. Dedim ki, düzdür, səfir iş görür, amma Artis Pabriks məsələsi Faiq Səfərovla bağlıdır. Nazir Artis Pabrikslə 20 ilə yaxındır tanışlığımız var. Məhz təbliğatın nəticəsidir ki, Latviyanın müdafiə naziri regionda digər ölkələrə yox, sadəcə Azərbaycana səfər etdi.

**- Niyə sizin təkbaşına həyata keçirdiyiniz işləri digər diaspora təşkilatları görə bilmirlər?**

- Diaspora fəaliyyətini hansısa qərarlarla, strukturlarla formalaşdırmaq, inkişaf etdirmək olmaz. Diaspora, lobbiçilik daha çox insanın içində olmalıdır. Yəni bu işi insanlarımız özü, könüllü şəkildə icra etməlidirlər, hansısa sərəncamın, qanunların gücü hesabına deyil. Yəhudilər sinaqoq ətrafında cəmləşiblər, onları bir araya gətirən hadisə faşistlərin törətdikləri soyqırımlar (holokost) olub. Ermənilər isə özlərinə saxta, uydurma "soyqırım" düzəldiblər, onun əsasında təşkilatlanıblar. Halbuki, tarix boyu ən böyük soyqırımlara məruz qalan azərbaycanlılar olub. Özü də bizlərə qarşı soyqırım həyata keçirənlər ermənilər idi. Amma bu həqiqətləri hələ də dünya ictimaiyyətinin diqqətinə çatdıra bilməmişik. Hansısa ölkədə minlərlə azərbaycanlının yaşaması lobbiçilik demək deyil. Həmvətənlərimizi bu prosesə cəlb etmək, təşkilatlandırmaq lazımdır. Çox az insan könüllü olaraq diaspora işi ilə məşğul olur.

**- Diaspora fəaliyyətinin genişmiqyaslı olmamasının, görülən işlərin effektsizliyinin səbəbləri nədir?**

- Səbəbi odur ki, lobbiçilik işini, təbliğatı aparanlar peşəkar deyillər, bu işin mütəxəssisi deyillər. Birincisi, sərhədlərimiz bağlıdır, turistlər ölkəyə gələ bilmir. Ölkəyə turistlərin gəlməsi çox-çox önəmlidir. Həm iqtisadi baxımdan faydalıdır, həm də təbliğat cəhətdən vacibdir. Əfsuslar olsun ki, Avropadan Azərbaycana səfərlər az təşkil olunur. Mən Latviya vətəndaşı kimi Gürcüstana vizasız sərbəst gəlib-gedə bilərəm. Riqadan Tbilisiyə hər həftə 8, Batuma 4 təyyarə reysləri var. Türkiyəyə, İstanbula isə gün ərzində 4-5 reys təşkil olunur. Amma Azərbaycan Latviya üçün sanki "bağlı ölkədir". Düzdür, Azərbaycan haqqında məlumatlar, xüsusən 1990-cı ildən bu yana baş vermiş olaylar, qanlı 20 Yanvar, Xocalı soyqırımı, erməni işğalı, Qarabağda törədilmiş vəhşilik, barbarlıq və s. olaylar televiziya və digər mətbuat orqanları vasitəsi ilə, Avropa cəmiyyətlərində təqdim olunur. Amma latviyalı sadə vətəndaş, hansısa efirdə, yaxud qəzetdə getmiş bir materiala niyə inansın? Daha yaxşı olar ki, həqiqətləri öz gözləri ilə görsün. Ağdamda, Füzulidə, Zəngilanda, Qubadlıda törədilən vandalizmin şahidi olsun.

**- Mütəmadi olaraq Qarabağa diplomatik korpusların, səfirlik nümayəndələrinin səfəri təşkil olunur. Bunlar effektli deyilmi?**

- Qarabağa aparılan diplomatlar bizim xeyrimizə heç nə etməyəcəklər. 200-300 əcnəbinin protokol qaydasına uyğun bölgəyə səfərinin təşkil edilməsi formal prosedurdur və nəticəsizdir. Diplomatik nümayəndələrdən daha çox Azərbaycana müxtəlif ölkələrdən gələn turistlərin sayını artırmaq lazımdır. 2018-ci ildə keçmiş mədəniyyət naziri Əbülfəs Qarayevlə Qəbələdə görüşmüşdüm. O zaman da nazirə demişdim ki, Azərbaycanda turizm texnologiyası yoxdur. Əhalisi 1 milyon 800 min olan kiçik Latviyada hər il 7-8 milyon turist gəlir. Amma Bakıya maksimum 2 milyon turist gəlib-gedir. Halbuki, hər il Bakıda 40-50 milyon turist axını ola bilər.

**- Turistlərin Azərbaycana daha az gəlməsinin yeganə səbəbi sərhədlərin bağlı olmasıdır, yoxsa başqa səbəblər də var?**



- Mühüm səbəblərdən biri sərhədlərin bağlı olmasıdır. Pandemiya bütün dünyada var. Amma əksər ölkə sərhədlərini açıb, məhdudiyyətləri aradan qaldırıb. Biz də qonşu Gürcüstan kimi sərhədlərimizi tam açmalıyıq. Digər önəmi məsələlərdən biri də viza tətbiqi ilə bağlıdır. Viza məsələsi də həllini tapmalıdır. Niyə mən ABŞ-a, Türkiyəyə, Gürcüstana, hətta İrəvana belə vizasız gedə bilərəm, amma öz Vətənimə vizasız gələ bilmirəm?! Sərhədləri qapalı saxlamaqla özümüzə ziyan vururuq. Deyirlər, quru yolu bağlıdır, hava yolu açıqdır. Axı hər turist təyyarə ilə səyahət etmir. Minlərlə turist bir çox ölkəni gəzir, quru sərhədlərlə gedib-gəlirlər. Avropa ölkələri ilə vizasız gediş-gəlişi təmin etməliyik.

**- Yəni sadə turistlərin gəliş-gedişi lobbiçilik fəaliyyəti üçün daha faydalıdır?**

- Bəli, əlbəttə. Milyonlarla turist könüllü lobbiçilik fəaliyyətinin ən yaxşı icraçılarıdır. Onlar geri qayıdarkən öz ailələrinə, yaxınlarına gördüklərini danışacaqlar. Onlardan eşidənlər də başqasına danışacaq. Turistlər Azərbaycan həqiqətlərini, tariximizi, mədəniyyətimizi, mətbəximizi, Qarabağı anladacaqlar. Əgər Azərbaycana giriş vizası ləğv edilərsə, ölkədə turizm industriyası yaradılacaq. Avropa ölkələri ilə əlaqələrimizi mütləq gücləndirməliyik. Dünyanın bütün ölkələrində "lobbiçilik" hərəkatı yaratmalıyıq. Bu texnologiya Riqada, "Latviya-Azərbaycan" kültur assosiasiyasında yaradılıb və 34 ildir ki, fəaliyyətdədir.

**- Lobbiçilikdə başqa uğurlu təbliğat vasitələri nələrdir?**

- Uğurlu təbliğat vasitələrindən biri, bəlkə də birincisi filmlər, audio-video materiallar, vizual görüntülərdir. Nəşr olunan kitablar da müəyyən rol oynayır. Axı bizim dövlətimizin, xalqımızın tarixi, mədəniyyəti çox zəngindir. Bunları dünya xalqları da bilməli, öyrənməlidir. Biz onlara çatdırmalıyıq. Bir məqamı qeyd edim. Moskvada yaşayan, görkəmli azərbaycanlı biznesmen Araz Ağalarov, Nabranda "Sibruz" adlı Avropa səviyyəli əyləncə zonasını yaradıb. Bu, əsl lobbiçilik və vətənpərvərlikdir. İndi Azərbaycana gələn xarici turistlər belə deyirlər: "Azərbaycanda 9 yox, 10 iqlim tipi var, onuncu isə "Sibruz" əyləncə mərkəzidir. Bu da lobbiçiliyə xidmətdir. Ümumiyyətlə, hər bir ölkənin imicini, reytinqini müəyyən edən amillər var. Onlar - ölkəni iqtisadi gücü, güclü ordusu, təbii sərvətləri, Oskar film mükafatları, Nobel mükafatı laureatlarının sayı və milli mətbəxidir. Azərbaycan və Latviya hökumətinə indiyədək 300-dən çox ideya təklif etmişik. 60-a yaxın yeni texnologiyamız inkişaf mərhələsindədir.

**- 44 günlük Vətən müharibəsindən sonra Azərbaycana baxış dəyişibmi?**

- Çox fərq var. Latviyanın dövlət televiziyası olan "LTV-1" kanalı 44 günlük müharibəni və Zəfərimizi dünyada olan hadisələrin zirvəsi adlandırmışdı. Prezident İlham Əliyevin düşməndən azad edilmiş Qarabağ torpaqlarına səfərlərini yayımlamışdı. "LTV-1" dünya birliyinin diqqətini Azərbaycan Silahlı Qüvvələrinin Ermənistana qarşı 44 günlük müharibədə qazandığı qələbəyə yönəltmişdi. Bəyan etmişdi ki, "Qarabağ Azərbaycandır! Azərbaycan Prezidenti İlham Əliyev müzəffər Prezidentdir! Bu, Azərbaycanın lehinə, güclü propaqanda idi. Riqada ən güclü Azərbaycan lobbisini yaratmışıq və digər millətlər bizim təcrübəmizi öyrənirlər. "Azəri" Azərbaycan Milli Hərəkatını yaratmışıq. Bu, Latviyada, Avropada və dünyada ilk ideya idi. "Azəri" Milli Hərəkatının yaranma tarixi 1966-cı il iyunun 1-i hesab olunur. Hazırda "Azəri" dünya azərbaycanlıları arasında ən populyar brenddir. Hətta "SOCAR"dan daha çox tanınan brenddir.

**İsmayıl Qocayev**

# Azərbaycan vətəndaşlığını qəbul etmək istəyən ermənilərin sayı artacaq

## Fazil Mustafa: “Bu tendensiyanın inkişafına imkan yaratmalıyıq”




“Bir erməni kəndi obrazı yaratmaq və birgəyaşayış modelini təqdim və təbliğ etməliyik”

**Bir neçə erməni Prezident İlham Əliyevə müraciət edərək, Azərbaycan vətəndaşlığına qəbul edilmələrini istəyiblər! Onlardan biri tanınmış bloqer, İstanbulda ailəsi ilə müvəqqəti yaşayan İşxan Verdyandır. O, Azərbaycan Respublikası vətəndaşlığının verilməsi xahişi ilə dövlət başçısı İlham Əliyevə müraciət edib. Bununla yanaşı, o, Xankəndi şəhərində yaşamaq niyyətində olduğunu da vurğulayıb:**

”Hörmətli, cənab Prezident! Mənə Azərbaycan vətəndaşlığı verməniz, Xankəndidə yaşamağa və işləməyə icazə verməniz xahiş edirəm”. Ermənistan vətəndaşı Vaqe Qambaryanın video-müraciəti də yayılıb: ”Axşamınız xeyir, cənab İlham Əliyev. Mən Ermənistan vətəndaşıyam və sizdən xahiş etmək istəyirəm ki, mənə Azərbaycan vətəndaşlığı verəsiniz ki, mən Bakı şəhərinə səfər edim. Qohumlarımı və sevdiyim insanları, mənə dəyər verən şəxsləri görə bilim. Mən də gələcəkdə Xankəndi şəhərində yaşamaq istəyirəm. Azərbaycan xalqını sevirəm, hörmət edirəm və qiymətləndirirəm”.



Ölkəmiz çoxmillətli və etnik müxtəlifliyə malik olan tolerant dövlətdir. Rəsmi Bakı dəfələrlə Qarabağda və digər ərazilərimizdə yaşayan ermənilərin təhlükəsizliyinə təminat verəcəyini bəyan edib. Azərbaycanda yaşayan bütün millətlər özlərini çox rahat hiss edirlər. O cümlədən digər ərazilərimizdə yaşayan 10 minlərlə erməni bu gün də Azərbaycan vətəndaşlarıdırlar və heç bir ayrıseçkiliyə məruz qalmayıblar. Deməli, digər ərazilərimizdəki ermənilər çox sərbəst və azad şəkildə yaşayıblarsa, Qarabağdakı ermənilər də yaşaya bilərlər. Bununla bağlı Azərbaycan tərəfi ermənilərə dəfələrlə çağırış edərək onlara dövlətimizin himayəsi altında rahat və təhlükəsiz yaşam təklif edib.

**Millət vəili Fazil Mustafa bildirib ki, buna adi bir müraciət kimi baxmaq lazım deyil. Deputatın fikrincə, ermənilər yenə ”hiyləgərlik edirlər”, ”inanmaq olmaz” kimi ifadələrin yeri deyil:** ”Sadəlövh olmayaq, dəstamaz alıb müsəlman olacaq erməni axtarışında deyilik. Bizim hədəfimiz Azərbaycan vətəndaşlığını qəbul edən, onun qanunlarına tabe olan ermənilərin Qarabağda yaşamasına təminat verməkdir. Belədirsə, siyasi cəhətdən ağıllı davranmağa məhkumuq. Bu tendensiyanın inkişafına imkan yaratmalıyıq. Fikrimcə, ilkin mərhələdə Qarabağın bizim nəzarətimiz altında olan erməni kəndlərinin birində Azərbaycan vətəndaşlığını qəbul edən erməniləri yerləşdirməliyik. Onlarla bağlı təbliğat aparmalıyıq. Bir erməni kəndi obrazı yaratmaq və birgəyaşayış modelini təqdim və təbliğ etməliyik. Görürsünüzmü, vətəndaşlığımızı qəbul edən ermənilərlə hər hansı problemimiz yoxdur. Normal Azərbaycan vətəndaşı kimi yaşaya bilirlər. Təbii ki, hərtərəfli nəzarət mexanizmini də düşünməliyik. Hələlik sayları ikidir, stimullaşdırsaq, sayları arta bilər. Azərbaycan vətəndaşlığını qəbul edən ermənilər və terrorçu, yaxud da separatçı ermənilər fərqini diplomatiyada daha sıx-sıx istifadə etmək mümkündür. Həm də təkcə diplomatiyada deyil”.

**Qarabağ qazisi Rey Kərimoğlu isə düşünür ki, ermənilərə Azərbaycan vətəndaşlığı vermək hələ çox tezdir:** ”Qarabağdan silahlılar çıxsın, orada Azərbaycanın suverenliyi bərqərar olsun. Azərbaycanlı köçkünlər Qarabağın kəndlərinə qayıtsınlar. Bundan sonra ermənilərin müraciətini araşdırmaq olar. Cinayət törətməmiş ermənilərin Azərbaycan vətəndaşlığına qəbul edilib-edilməməsi ilə bağlı dövlətimiz qərar verər”.

**İsmayıl Qocayev**



# London təxribatı baş tutmadı

## Məqsəd indiki həssas situasiyada Azərbaycanla İran arasında açıq müstəvidə ciddi konflikt yaratmaq idi

**Azərbaycanın Böyük Britaniya səfirliyinə radikal dəstənin, ”Mehdinin xidmətçiləri” adlı dini qruplaşma üzvlərinin hücumu hələ də müzakirə olunmaqdadır. ”Mehdinin xidmətçiləri” təşkilatının mətbuat sözçüsü Hişam əl-Əsgər hadisə sonrası açıqlamasında bildirib ki, guya, Azərbaycanda şiə ayinlərə qarşı ”mübarizə” var.**

Təşkilat buna etiraz əlaməti olaraq Azərbaycanın Londondakı səfirliyinə hücum çəkdiyini iddia edib. Maraqlıdır ki, ”Mehdinin xidmətçiləri” bu günə qədər Azərbaycan mövzusuna heç zaman müraciət etməyib. Ümumiyyətlə, Azərbaycanda bu təşkilatın adını məlum hadisəyə qədər bilən çox az insan var idi. Sözügedən qruplaşma olaydan bir xeyli zaman keçəndən sonra hücumu öz üzərlərinə götürüblər. Ekspertlərin fikrincə, baş verənlər göstərir ki, ”Mehdinin xidmətçiləri” sadəcə kukladır və bu kuklanın iplərini idarə edən kənar güclər var.

**Siyasi şərhçi Turan Rzayev ”Şərq”ə deyib ki, radikal qruplaşmanın başçısı Yasir əl-Həbib hazırda Londonda fəaliyyət göstərir. 43 yaşlı radikal görüşlü din xadimi 1979-cu ildə Küveytdə anadan olub. Siyasi əməlləri üçün dindən istifadə edən şəxs kimi tanınır:** ”O, ifrat görüşlərinə görə tanınır. Hətta buna görə Küveytdə həbs də olunub. Həbsdən çıxdıqdan sonra İrana yollanan Əl-Həbib Qum şəhərində radikal görüşlü şiə din xadimi Ayətullah Məhəmməd Rza Şirazinin tələbəsi olub. Həbibin İranda yaşaması onun Tehrana bağlı şəxs olduğu təəssüratı yaratsa da, əslində belə deyil. Məsələ ondadır ki, İranın molla rejimi bu radikal qruplaşmanı istehza ilə ”'London şiələri”', qruplaşmasının liderini isə Britaniya kəşfiyyatına xidmət edən ”ingilis şiəsi” adlandırır. Əl-Həbib İran hakimiyyətini ”despotik rejim”, Ayətullah Seyid Əli Xameneyini isə dəfələrlə ”nüvə başlıqlı ayətullah” adlandırıb. Yəni o, mövcud İran rejiminə qarşı olan şəxsdir. Bunu təsdiqləyən digər fakt 2018-ci ildə Əl-Həbib tərəfdarlarının Londondakı İran səfirliyinə hücum etməsidir. Bəs Əl-Həbibin məqsədi nədir? Azərbaycan səfirliyinə təşkil edilən hücum düşünülmüş və yaxşı işlənmiş plana əsaslanır. Məqsəd indiki həssas situasiyada Azərbaycanla İran arasında açıq müstəvidə ciddi konflikt yaratmaq cəhdidir. Əl-Həbib yaxşı bilir ki, bu hadisəyə görə Azərbaycan ictimaiyyəti İranı ittiham edəcək. Əslində bunun olmasında rəsmi Tehranın da payı az deyil. 44 günlük müharibə və sonrasında İranın Ermənistana verdiyi açıq dəstək, bir müddət öncə Azərbaycan sərhədləri yaxınlığında İran silahlı qüvvələrinin genişmiqyaslı hərbi təlimlər keçirməsi, Azərbaycan daxilində şiə inanclı şəxslərin İran tərəfindən rahatlıqla manipulyasiya edilməsi kimi hallar İranı bir nömrəli müqəssir halına gətirir. Yasir Əl-Həbibin başqa güclər tərəfindən himayə edildiyi açıqdır. Hadisə zamanı polislərin müdaxilə etməməsi, London kimi bir şəhərdə səfirliyin rahatlıqla ələ keçirilməsi belə qənaətə gəlməyə əsas verir”.

**İsmayıl**

# Haqlı tərəf Təl-Əvivdir...

## İsrailin varlığı bəşəriyyət üçün lazımdır



Politoloq: “Fələstinlilər ərəb ölkələrinə xas xüsusiyyət kimi zəhmət çəkmədən yaşamaq arzusundadırlar”

**Fələstinlə İsrail arasında gərginlik yenidən alovlanıb. Fələstin tərəfinin açıqlamalarına görə, İsrailin Qəzza sektoruna endirdiyi aviasiya zərbələri nəticəsində 32 fələstinli həlak olub, 253 nəfər yaralanıb. İsrail tərəfi isə hava zərbələrinin HƏMAS təşkilatının raket hücumlarına cavab olaraq gerçəkləşdirildiyini qeyd edib.**

İsrail təhlükəsizlik qüvvələri İordan çayının qərb sahilində ”İslami cihad” radikal Fələstin qruplaşmasının 20 fəalını saxlayıb. Həbslər xüsusilə Cenin şəhərində, Tsaida, Anaza və Rai kəndlərində, həmçinin Tulkərm qaçqın düşərgəsi ərazisində həyata keçirilib. İsrail Ordusu Qəzza zolağında ”İslami Cihad” hərəkatına qarşı ”Sübh” əməliyyatına başlayıb. İsrailin Baş naziri Yair Lapid deyib ki, müdafiə qüvvələri Qəzza zolağında hərbi əməliyyatın bütün məqsədlərinə nail olub. Hadisələrdən sonra İsrail və Fələstin arasında Misirin təklifinə əsasən atəşkəs bərqərar olunub. Tərəflər atəşin dayandırılması barədə razılığa gəliblər. İsrail, hazırda yanacaq böhranı ilə üzləşmiş Qəzzanın blokadasının yumşaldılması təklifi ilə də razılaşıb.

**Politoloq Vasif Əfəndiyev ”Şərq”ə deyib ki, onun subyektiv baxışına görə, İsrail-Fələstin münaqişəsində haqlı tərəf Təl-Əvivdir. Ekspertin sözlərinə görə, mövzuya tarixi nöqteyi-nəzərdən yanaşsaq da, israillilərin bölgədə dövlət haqqı tanınmalıdır:** ”Fələstin uzun müddətdir BMT-nin onlara verdiyi haqqı ayaqlar altına atır, İsrailin dövlət hüququnu tanımaq istəmir. Bölgədə real vəziyyət hazırda baş verən siyasi prosesləri tamamlayır. İsrailin ərazi bütövlüyü bir neçə əhəmiyyətsiz dövlətləri çıxmaq şərti ilə tanınıb. Yəhudilər dünya elm və mədəniyyətinə saysız-hesabsız görkəmli şəxsiyyətlər bəxş etmiş xalqdır. İsrailin varlığı bəşəriyyət üçün lazımdır. Fələstinlilər isə ərəb ölkələrinə xas xüsusiyyət kimi zəhmət çəkmədən yaşamaq arzusundadırlar. İranın təsir dairəsində olan Fələstin bölgədə daim gərginlik yaradır, yəhudilərin həyatı üçün real təhlükə yaradır. Fələstinə atılan raketlər cavab atəşidir. İsrail ərazilərinə 300-dən artıq raket atılıb”.

Tərəflər arasında gərginliyin yenidən alovlanması Ankara hökuməti tərəfindən ənənəvi olaraq tənqid olunacaq: ”Lakin İsrail-Türkiyə münasibətlərinin geriləməsi baş verməyəcək. Türkiyə ilə İsrail arasındakı münasibətlərin normallaşması həm Qərb dairələrini, həm Rusiyanı, həm də PKK tərəfdarlarını çox narahat edir. Qonşu İran da Türkiyənin gündən-günə artan hərbi qüdrətinə qısqanclıqla yanaşır. Lakin bu güclərin qısqanclığı mənasızdır və əllərindən gələcək bir şey yoxdur”.

**İsmayıl Qocayev**





# Hər gün göbələk kimi artırlar

## Hərbi geyimdən dələduzluq məqsədi üçün istifadə edənlərə ən ağır cəza verilməlidir

**Hərbi geyimi qanunsuz daşıyanlarla bağlı məsələ yenidən gündəmə gəlib. Son günlər adi vətəndaşların hərbi forma geyinərək özlərini ordu generalı, zabit kimi təqdim etməsi halları artıb. Hərbiyə aidiyyəti olmayan bu şəxslər hərbi rütbəli formalar geyinməklə sosial hesablarında şəkil və videolar paylaşır, hətta bəziləri dələduzluq edirlər. Hərbi geyimdə olan mülki şəxslərin iştirakı ilə dələduzluq hərəkətləri belə qeydə alınıb. Bir neçə gün əvvəl isə sosial şəbəkədə özünü zabit kimi təqdim edən əsgər ordu sıralarından xaric edilib.**

Bu dəfə isə sosial şəbəkələrdə hərbi qulluqçu adından paylaşım edən vətəndaşla bağlı açıqlama yayılıb. Müdafiə Nazirliyinin məlumatına görə, sosial şəbəkələrdə özünü Hərbi Polis əməkdaşı olaraq hərbi geyim formasından və fərqlənmə nişanlarından istifadə edərək müxtəlif zabit rütbələri ilə ”Gülər Məmmədova” adı altında ”hərbi226” hesabından paylaşımlar edən vətəndaşın Azərbaycan Ordusuna heç bir aidiyyəti yoxdur”.

Hərbi ekspertlər hesab edir ki, hər bir forma geyinən şəxsə ayrı-ayrılıqda nəzarət etmək mümkün deyil. Bu problemdən çıxış yolu yalnız maariflənmədən keçir.

Xatırladaq ki, hərbi geyim formasını daşımaq hüququna Silahlı Qüvvələrdə həqiqi hərbi xidmət keçən bütün hərbi qulluqçular, hərbi lisey kursantları, toplantılara çağırılmış hərbi vəzifəli şəxslər, habelə ehtiyata, yaxud istefaya buraxılmış hərbi geyim forması daşımaq hüququ olan hərbi qulluqçular malikdir.

Hərbi geyim formasını daşımaq hüququ olmayan vətəndaşların hərbi qulluqçuların fərqləndirmə nişanları olan geyim formasını geyməsi qadağandır.

İnzibati Xətalar Məcəlləsinin 534-cü maddəsinə əsasən hərbi geyim formasını qanunsuz daşımağa görə inzibati xətanın obyekti olmuş hərbi geyim forması müsadirə edilməklə 300 manatdan 500 manatadək cərimə edilir.

**Hüquqşünas Əli İbrahimov hesab edir ki, hərbi geyimdən sui-istifadə edənlərin cəzalandırılması ilə bağlı tədbirlər daha da sərtləşdirilməlidir:** ”Bu məsələ zaman-zaman mətbuatda yer alır. Hərbi geyimə icazəsi olanlar bu formadan istifadə etməlidir. Çünki formanın özünün müəyyən tələbləri var və onu geyən şəxslər müvafiq qaydalara əməl etməlidirlər. Vətən savaşından sonra hərbi geyimdən istifadə edənlərin sayı daha da artıb. Əlbəttə ki, odlu-alovlu müharibədən çıxmış hərbçilərimizin və qazilərimizin hələ də o hisslərlə yaşadığını anlayırıq. Prinsip cəhətdən qazilərimiz hərbi geyimin qaydalarına əməl edirlər. Amma bəziləri bu formadan sui-istifadə edir və şəxsi məqsədlərini həyata keçirirlər. Hətta özlərini müharibə iştirakçıları kimi aparırlar ki, bu, yolverilməzdir. Hərbi geyimin ucuzlaşdırılmasından qazi və müharibə veteranlarının özləri də narahatdırlar”.

**Millət vəkili Fazil Mustafanın ”Şərq”ə açıqlamasına görə, hərbiyə aidiyyəti olmayan şəxslərin forma geyinib şəkil, video paylaşması, şəhərdə o formada gəzməsi, guya, vətənpərvərlik nümunəsi kimi göstərilsə də, hoqqabazlıq elementidir**: ”İnsanlar, hərbi, dini və başqa bir sahəyə mənsub geyimlərlə manipulyasiya edirlər. Hərbiyə aidiyyəti olmayan insanların hərbi geyimdə olması üçün müvafiq strukturların razılığı olmalıdır. Bundan əvvəlki müdafiə nazirinin dövründə millət vəkillərinin hərbi hissələrə səfərləri təşkil edilirdi. Bu səfərlər çərçivəsində biz də hərbi geyimlər geyinirdik və bu geyimlər bizə nazirlik tərəfindən təqdim olunurdu. Bu səfərlər bir növ təbliğat xarakterli olduğu üçün milət vəkili və ya digər dövlət qurumu əməkdaşlarının hərbi hissələrə gedərkən əsgərlə eyni geyimdə olmağı effektiv hal kimi dəyərləndirilirdi. Amma dələduzluq və hoqqabazlıq məqsədi ilə hərbi geyimlərdən sui-istifadə etmək yolverilməzdir. Fikir versəniz, ordudan tərxis olunmuş insanların bir qismi də özlərini göstərmək üçün hər yerə hərbi formada gedirlər. Hansı ki axtarsan, həmin şəxslərin çoxu fərari çıxar. Əsl qazilər, döyüşçülər belə şeylərlə diqqət mərkəzinə gəlməyi xoşlamırlar. Döyüş yolu keçən şəxslərin paradlarda, hərbi tədbirlərdə medallarını taxmaq üçün hərbi forma geyinməsi başadüşüləndir. Amma metroya, bulvara, hansısa yas, toy məclisinə hərbi geyimlə getmək etik deyil. Düzdür, ortada dələduzluq faktı olmadığı müddətdə hərbi geyimdə gəzdiyi üçün kimisə cəzalandırmaq doğru deyil. İnsanlarımız özləri diqqətli olmalı və bu cür həssas mövzular üzərindən reytinq yığmamalıdır. Hərbi geyim konkret xidmət göstərən insanlara aid bir formadır. Heç bir tələb olmadığı halda kimlərinsə özünü vətənpərvər kimi göstərmək üçün bu geyimi geyinməsi səmimiyyətdən uzaqdır”.

*Deputat deyib ki, hərbi geyimdən dələduzluq məqsədi ilə istifadə edənlərə gəldikdə isə onlarla bağlı ciddi addımlar atılmalı, sərt cəzalandırılmalıdırlar. Bununla bağlı Cinayət Məcəlləsində müəyyən dəyişikliklər edilməlidir:* ”Özünü rütbəli şəxs kimi təqdim edərək şəhid ailəsini, qaziləri aldadan, onların etibarından sui-istifadə edən, bu məqsədlə insanlardan pul yığan adamlara qarşı məhkəmədə yüngülləşdirici hallar tətbiq edilməməlidir. Onlara qarşı ən ağır cəzalar verilməlidir ki, bu tendensiya ənənə halını almasın”.

Hərbi formaların açıq satışda olduğunu vurğulayan millət vəkili onları əldə etməyin elə də çətin olmadığını deyib: ”Hətta hərbiçilərin özləri belə formalarını adi mağazalardan alır deyə onun satışını məhdudlaşdırmaq mümkün deyil. Bu məsələdə cəmiyyət ayıq-sayıq olmalı, hərbi geyimlə dələduzluq edən ünsürlərin ifşasında müvafiq qurumlara dəstək verməlidir. Əgər kiminsə qonşusu bu cür fırıldaqçılıqla məşğuldursa, buna qarşı həssas olmalı və aidiyyəti qurumların diqqətinə çatdırmalıdır ki, başqaları da zərər görməsin”.

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi;



# Türkiyə, Almaniya, İsveçrə və Amerikanın təcrübəsi öyrənilib

## İnformasiya təhlükəsizliyi ixtisası üzrə yeni təhsil proqramından gözləntilərimiz yüksəkdir

**Cəmiyyətin inkişafının müasir mərhələsi informasiya mühitinin artan rolu ilə xarakterizə olunur. İnformasiya mühiti dövlətin siyasi, iqtisadi, müdafiə və digər sistemlərinə aktiv təsir edən cəmiyyətin həyatının ən vacib faktorlarından biridir. Dövlətin milli təhlükəsizliyi informasiya təhlükəsizliyinin təmin edilməsindən əhəmiyyətli dərəcədə asılıdır.**

Hazırda informasiya milli strateji resurs olub, dövlətin ən əsas sərvətlərindən biri sayılır. İnformasiyalaşdırmanın təsiri altında cəmiyyətin bütün sahələri çeviklik və dinamiklik kimi yeni keyfiyyətlər almaqdadır. Lakin eyni zamanda informasiya təsirindən ictimai proseslərin potensial zəifliyi artır. İnformasiya təhlükəsizliyinin təmin edilməsi Azərbaycan Respublikasının ən prioritet vəzifələrindən biridir. Dövlət hakimiyyət orqanları və təşkilatları Azərbaycan Respublikasının qanunvericiliyini rəhbər tutaraq informasiya resurslarının təşkili olunması və istifadə edilməsinə görə öz fəaliyyətlərində məsuliyyət daşıyırlar. Elmi-texniki tərəqqinin inkişafı artdıqca şəxsiyyətin, cəmiyyətin, dövlətin informasiya təhlükəsizliyi artmaqdadır və onun təhlükəsizliyi dövlət siyasətində müvafiq yeri tutmalıdır. Cəmiyyətin informasiyalaşdırılması səviyyəsinin artması onun informasiya təhlükəsizliyini daha etibarlı edir. Elmi-texniki inqilab nəticəsində yaranan informasiya cəmiyyəti onun əsasını təşkil edən informasiyanı ən mühüm resursa və başlıca amilə çevirib. Cəmiyyət tədricən öz informasiya infrastrukturunun vəziyyətindən müəyyən asılılıq vəziyyətinə düşür. Müasir dövrdə vətəndaşların, cəmiyyətin və dövlətin həyatında informasiya texnologiyalarının rolunun artması milli təhlükəsizliyin təmin olunması sistemində informasiya təhlükəsizliyi məsələlərini ön plana çıxarır.

Qeyd edək ki, hər bir cəmiyyətin tərəqqisi elmi-texniki və intellektual potensialın inkişaf vəziyyətindən, ölkənin təhsil sistemindən çox asılıdır. Son zamanlar qlobal texnoloji kontekstdə baş verən sürətli inkişaf yeni peşə kompetensiyalarına, bilik sahələrinə və təcrübələrə olan tələbatın kəskin artmasına səbəb olub.

Bakalavriat səviyyəsində informasiya təhlükəsizliyi ixtisası üzrə müasir tələblərə uyğun yeni təhsil proqramı hazırlanıb. Yeni proqram Elm və Təhsil Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə təşəbbüsü ilə ölkənin aparıcı ali təhsil müəssisələrinin və müxtəlif dövlət qurumlarının nümayəndələri ilə yanaşı, dünyanın nüfuzlu universitet və şirkətlərində çalışan azərbaycanlı mütəxəssislər tərəfindən hazırlanıb.

Proqram Türkiyə, Almaniya, İsveçrə, Amerika kimi inkişaf etmiş ölkələrin təcrübəsinə əsasən hazırlanıb. Proqramın hazırlanması zamanı həm dövlət və həm də özəl sektorda əmək bazarının cari tələbləri, o cümlədən ABŞ-ın Milli Standartlar və Texnologiyalar İnstitutunun (NIST) hazırladığı "NICE Framework", Beynəlxalq Hesablama Maşınları Assosiasiyası (ACM) və IEEE Kompüter Cəmiyyətinin birgə hazırladığı "Kibertəhlükəsizlik üzrə kurikulum tövsiyələri" kimi beynəlxalq mənbələr araşdırılıb və nəzərə alınıb.

Yeni təhsil proqramı dörd modul - informasiya sistemlərinin preventiv mühafizəsi, informasiya təhlükəsizliyi insidentlərinin aşkarlanması, informasiya təhlükəsizliyi insidentlərinin idarə edilməsi, informasiya təhlükəsizliyi həllərinin planlaşdırılması və tətbiqi modulları üzrə peşə kompetensiyalarını əhatə edir. Yeni təhsil proqramının məzunları gələcəkdə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə əmək bazarının ən son tələbatına uyğun peşələr üzrə çalışa biləcəklər. Proqram informasiya təhlükəsizliyi ilə yanaşı kibertəhlükəsizlik sahəsində də kadr hazırlığı üçün müvafiq fənlərin tədrisini nəzərdə tutur.

Texnoloji yeniliklər nəzərə alınmaqla, proqrama "Bulud təhlükəsizliyi", "Elektronika və IoT cihazların təhlükəsizliyi", "Sənaye idarəetmə sistemlərinin təhlükəsizliyi" və s. bu kimi yeni ixtisas fənləri daxil edilib. Tədris olunan fənlər və peşə kompetensiyaları arasında əlaqələrin göstərilməsi, tələbələrin ixtisasları barədə geniş təsəvvürünün yaradılması üçün ixtisasa giriş məqsədi daşıyan "İnformasiya təhlükəsizliyinin əsasları" fənninin tədrisi birinci kursun ilk semestrində nəzərdə tutulur. "Mühəndis etikası", "İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliyin hüquqi aspektləri" fənləri də proqramda xüsusi yer alır. Qeyd olunanlarla yanaşı, ölkəmizdə proqram təminatı kodlarının təhlükəsizliyinin təmin edilməsi sahəsində yaranmış kadr ehtiyacının ödənilməsi məqsədilə "Təhlükəsiz proqramlaşdırma", "Nüfuzetmə sınaqlarının əsasları", "Verilənlər bazalarının təhlükəsizliyi" və s. bu kimi zəruri ixtisas fənlərinin də proqram çərçivəsində tədrisi nəzərdə tutulub.

Yeni proqramda əmək bazarı subyektləri ilə əlaqələrin yaxşılaşdırılması, proqramın əmək bazarının mövcud tələbləri ilə uzlaşdırılması, tələbələrin müvafiq peşə ixtisasına aid aktual məsələlərə dair məlumatlılığının təcrübə əsasında artırılması məqsədi üçün ustad dərsləri də planlaşdırılır. Ustad dərsləri həm yerli və həm də xarici əmək bazarından yüksək ixtisaslı mütəxəssislərin cəlb olunması vasitəsilə təşkil olunacaq.

Proqramda bir çox yeniliklərin olduğu nəzərə alınaraq, ali təhsil müəssisələri və əmək bazarı subyektləri arasında koordinasiya işinin təşkili edilməsi, həmçinin mütəmadi olaraq beynəlxalq təcrübəyə əsaslanan metodiki dəstəyin verilməsi üçün Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA) ilə birgə fəaliyyət perspektivləri nəzərdə tutulub. Bakalavriat səviyyəsinin "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə yeni təsdiq olunmuş təhsil proqramı 2022-2023-cü tədris ilindən etibarən tətbiq ediləcək.

**İnformasiya Texnologiyaları üzrə mütəxəssis Tural Məmmədov "Şərq"ə açıqlamasında deyib ki, təşəbbüs Elm və Təhsil Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətindən olsa da, proqramın hazırlanmasında onlar da iştirak edib:** "İnformasiya təhlükəsizliyi ixtisası üzrə yeni təhsil proqramından gözləntilərimiz yüksəkdir. Təhsil sistemində mütərəqqi təcrübənin əsaslarını qorumaqla informasiya təhlükəsizliyi və kibertəhlükəsizliklə bağlı dövlət siyasətinin strateji məqsədlərini həyata keçirməyə qadir olan intellektual potensialın formalaşdırılmasında Türkiyə, Almaniya, İsveçrə, Amerika kimi inkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınaraq, bakalavriat səviyyəsinin "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə yeni təhsil proqramı hazırlanıb.

**"Yeni təhsil proqramının məzunları gələcəkdə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində çalışa biləcəklər"**

Bu proqramın daha keyfiyyətli və müasir tələblərə uyğun keçirilməsinə təkan verəcək. Yeni təhsil proqramının məzunları gələcəkdə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində çalışa biləcəklər.

Ölkədə kibertəhlükəsizlik ekosistemin inkişafı və dayanıqlığı ilə bağlı yeni tələblər müəyyən olunub. Düşünmək olar ki, yeni təhsil proqramı bu tələblərə uyğun peşəkar kadrların hazırlanması məqsədilə təsdiq edilib".

*İKT ekspertinin sözlərinə görə, bu ixtisas fənləri üzrə tədrisi universitet müəllimləri edəcək.* Orda bəzi istiqamətlər daha müasir yanaşmalar tələb edir deyə müəllimlərin professorların özlərinə də ixtisasartırma kimi əlavə treninqlərin keçirilməsi nəzərdə tutulub.

Bu proses kompleks yanaşma tələb edəcək, yeni biz proqramı müasir tələblərə uyğun yaradıb verdik.

Bunu tədris edəcək müəllim-professor heyətinin tədris metodunu da müasir tələblərə uyğunlaşdırmalıyıq.

Bunun üçün "Trainings for trainrs" təlimləri olacaq. Həmçinin şirkət və bizim kimi dövlət qurumlarından da mütəxəssislər tədris prosesinə dəstək üçün müasir texnologiyalar, yeni kibertəhdid növləri və onlarla mübarizə metodlarından, onları analiz və tədqiq imkanlarından master klaslar formatında qısa müddətlik dərslər demək üçün köməklik göstərəcəyik.

Ümumiyyətlə, bu prosesə hər kəs öz dəstəyini göstərməlidir ki, start nöqtəsini uğurla başladaq.

Şəymən

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Azərbaycanda vergi mədəniyyəti hələ formalaşmayıb

## Xalqdan qazanırlar, amma xalqa qaytarmırlar



İqtisadçı: "Bu günə qədər eşitməmişəm ki, hansısa müğənni vergi borcuna görə həbs olunub və ya böyük məbləğdə cərimə edilib"

**"Azərbaycanda vergi mədəniyyətinin formalaşması istənilən səviyyədə deyil. Türkiyə ilə müqayisədə ölkədə vergi rüsumlarının yığılması və xərclənməsi ilə bağlı açıqlama səthi xarakter daşıyır. Bu sözləri "Şərq"ə açıqlamasında iqtisadçı-ekspert Rauf Qarayev deyib.**

Ekspertin sözlərinə görə, ərəb xilafəti dövründən bizdə xüms, zəkat və sair vergi növləri var idi. Əslində, bu, vergi mədəniyyətini də özündə əks etdirir. Baxmayaraq ki, bizdə dini baxımdan formalaşan vergi mədəniyyəti könüllülük prinsipi daşıyır. Təəssüf ki, bu yanaşma qanunvericiliklə bağlı məqamlara sirayət etməyib. Yeni vergi verməyən şəxs ictimaiyyət tərəfindən qınaq obyektinə çevrilmir. Amma Avropada bu mədəniyyət formalaşdığı üçün orada bir çox vətəndaş vergi ödəməyi özlərinə borc bilir.

**İqtisadçının fikrincə, Avropada əmək haqları, pensiya təminatı, sosial müdafiə, ölkənin iqtisadi baxımdan inkişafı vergi prinsipi üzərində qurulub. Bizdə isə belə deyil:** "Neft sektoru büdcəni formalaşdıran amildir. Bu baxımdan da, əhalidə fikir formalaşıb ki, əgər neftdən pul gəlirsə, o halda vergi ödəməyə ehtiyac yoxdur. Belə düşüncə müğənnilərə də aiddir. Müğənnilər özləri açıqlayır ki, toyda 1 saat oxumaq üçün 15 min manat alırlar. Vergi məsələsini soruşduqda, deyir, ödəmirəm, çünki köməkçilərim var, qazancım onların xərclərinə gedir. Yaxud toya yoxlama gələndə qeyd edir ki, dostunun toyuna gəlib, gəliri yoxdur, "bir-iki ağız" oxuyub gedəcək. Bu günə qədər eşitməmişəm ki, hansısa müğənni vergi borcuna görə həbs olunub və ya böyük məbləğdə cərimə edilib". Ekspert deyib ki, müğənni şadlıq sarayı ilə müqavilə bağlamır, toy yiyəsi ilə razılaşıb gəlir: "Nə şadlıq sarayı bunu edəcək, nə də toy sahibi. Çünki belə halda onlar da vergi ödəyicisi siyahısına düşəcəklər. Bütün proseslər bir-birinə zəncirvari bağlıdır. Türkiyədə müğənni fəxr edir ki, vergi ödəyirəm, ölkəmə xeyir verirəm. Hətta sənətə yeni başlayanlar da bu addımları ilə nümunə olurlar. Azərbaycanda vergi qanunvericiliyi sərtdir, amma yayınmalar daha çoxdur. Deməli, sərtlik işə yaramır. Bu məsələdə vətənə, xalqa sevgi olmalıdır. Bizdə vergi təbliğatının əsas göstəricisi müğənnilər olmalıdır, çünki onlar xalqdan qazanırlar. Amma qazandıqlarından xalqa qaytarmaq istədiklərini görmürük".

Şəymən

**Dünən Aşura günü ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsində (QMİ) qanvermə aksiyası keçirilib. Aksiyada QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə, idarə əməkdaşları və ölkəmizdə fəaliyyət göstərən konfessiyaların nümayəndələri iştirak ediblər.**

Tədbirdə Kərbəla şəhidləri ilə yanaşı, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda və əzəli torpaqlarımızın işğaldan azad olunmasında canlarını fəda edən qəhrəman şəhidlərimizin xatirəsi dərin ehtiramla yad edilib. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nümayəndəsi Hacı Şahin Həsənli deyib ki, dinimiz insanın özünə xəsarət yetirməsini, qan çıxarmasını qadağan edir. İlahiyyatçının sözlərinə görə, xüsusilə də bunu Kərbəla hadisəsi ilə əlaqələndirmək Kərbəla hadisəsinin mahiyyətini kölgəyə salır. Şahin Həsənli bildirib ki, Aşura günündə insanların özünə xəsarət yetirməsi, qan çıxarması dinimizi gözdən salan, dinimizin qadağan etdiyi əməldir: "Ona görə də bu əməlin əvəzinə insanlara qanvermə aksiyaları keçirmək təklif olunur və məscidlərdə və tibb müəssisələrində qanvermə aksiyaları təşkil olunur. Yəni dinimizin buyurduğu kimi, bir insana həyat vermək bütün bəşəriyyəti diriltmək kimidir. Bu elə Kərbəla hadisəsinin amalları ilə də üst-üstə düşür və məntiqə də uyğundur. Aşura günündə inanclı insanlar qanvermə aksiyalarında geniş iştirak edir. Hər dəfə biz müraciət edirik ki, insanlar Aşura günü bu xeyirxah əməldə birlikdə iştirak etsinlər".



# Azərbaycanda dini etiqad azadlığı üçün hər cür şərait yaradılıb

## Millət vəkili: "Aşura mərasimində insanlar qan çıxarmaq yerinə qanlarını bağışlayaraq bu aksiyalarda fəal iştirak edirlər"

**Millət vəkili Ceyhun Məmmədov "Şərq"ə bildirib ki, Azərbaycan qədim dövrlərdən müxtəlif dinlərin nümayəndələrinin sülh və qarşılıqlı anlaşma şəraitində yaşadığı məkan olub. Deputat vurğulayıb ki, ölkəmizdə milli-mənəvi dəyərlərə diqqət və qayğı hər zaman yüksək olub:** "Ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda dini etiqad və vicdan azadlığının təmin edilməsi, dövlət-din münasibətlərinin sivil prinsiplərə uyğun tənzimlənməsi, dini-mənəvi, əxlaqi-etik dəyərlərin ictimai münasibətlərin tərkib hissəsinə çevrilməsi istiqamətində ciddi addımlar atıldı. Qısa müddətdə Azərbaycanda dövlət-din münasibətləri yeni mərhələyə qədəm qoydu. Sonrakı dövrdə bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirdi. Prezident dini dəyərlərimizə yüksək diqqət və qayğı göstərir. Ölkəmizdə məscidlərin, dini ibadət yerlərinin və ziyarətgahların bərpası və yenidən qurulması istiqamətində mühüm addımlar atır. Bu gün dünyada Azərbaycanın dövlət-din münasibətləri təqdir olunur, nümunəvi model kimi təqdim olunur. Azərbaycanda dini etiqad azadlığı üçün hər cür şərait yaradılıb. Hər il ölkəmizdə bütün dini mərasimlər, o cümlədən Məhərrəmlik mərasimləri yüksək səviyyədə qeyd olunur. Aşura islam tarixində dönüm nöqtəsi və bir qəhrəmanlıq salnaməsidir. İnsanların ali dəyərlər, haqq və ədalət uğrunda özünü qurban verməsinin ən bariz nümunələrindən biridir. Heç şübhəsiz ki, islam peyğəmbəri Həzrət Məhəmmədin nəvəsi Həzrət Hüseynin övladları və yaxınları ilə birlikdə şəhid olması İslam tarixində dərin iz buraxıb. Bu mənada Aşura sıradan bir dini-tarixi hadisə deyil, müsəlman dünyasında, xüsusən də Azərbaycan tarixində həm də şəhidlik salnaməsidir".

**C.Məmmədov qeyd edib ki, hər il Aşura mərasimləri ölkəmizdə yüksək səviyyədə qeyd edilir:** "Bu anım mərasimləri və əzadarlıqla yanaşı, qanvermə aksiyaları da keçirilir. Azərbaycan bu baxımdan nümunəvi ölkələrdən hesab olunur. Bu gün ayrı-ayrı ölkələrdə bu mərasimlər baş yarmaq və qan çıxarmaqla qeyd olunur. Amma Azərbaycan bununla bağlı nümunəvi modelini ortaya qoyaraq qanvermə aksiyası ilə bu aksiyalara öz töhfəsini verib. Yəni insanlar qan çıxarmaq yerinə qanlarını bağışlayaraq bu aksiyalarda fəal iştirak edirlər. İmam Hüseynin mübarizəsi haqq və ədalətin bərpası, vətənə, torpağa sədaqətin nümunəsi idi. Burada bizim çıxaracağımız bir çox dərslər var. Bu hadisələr Vətən, haqq, ədalət uğrunda canından belə keçməyə hazır olmaq mesajıdır. Bu gün hər birimiz o dövrdə baş verən hadisələrdən nəticə çıxararaq vətənimizin, torpaqlarımızın bütövlüyü və müstəqilliyi uğrunda hər an canımızdan keçməyə hazır olmalıyıq.

Heç şübhəsiz ki, Azərbaycanın qəhrəman oğulları 44 günlük müharibədə bu prinsiplərə sadiqlik nümayiş etdirərək vətən torpaqlarını göz bəbəkləri kimi qorudular, onun yolunda canlarından keçdilər, yeni qəhrəmanlıq salnaməsi yazdılar".

*Parlament üzvü vurğulayıb ki, bu baxımdan Kərbəla hadisələrinə təkcə tarixi kontekstdən deyil, həm də şəhidlik məktəbi kimi baxmalıyıq:* "Bu prinsip və dəyərlərə sadiqliyimizi daha çox xeyir və savab əməllərlə ifadə etməli, şəhidlərimizin xatirəsini hər zaman uca tutmalıyıq. Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı, rəşadətli Azərbaycan Ordusu qələbəsini təmin etdi. Bu qələbənin daimi və əbədi olması üçün hər birimiz səylə çalışmalıyıq".

İsmayıl Qocayev



# Stres və intihar...

## 5G insanların sağlam həyatına son qoyur

**Psixiatr-həkim Abdulla Şıxlinski Azərbaycanda son zamanlar artan intihar hadisələrinin səbəblərini açıqlayıb. Psixiatrın sözlərinə görə, intihar edənləri psixi xəstə adlandırmaqla bəzi qurumlar, məsul şəxslər özlərini sığortalamaq istəyir.**

Təəssüf ki, Azərbaycanda pis bir tendensiyanın əsası qoyulub. Belə də davam edəcək. İnsan öz problemini həll etmək istəyir, hüquqlarını tələb edir, adını qoyurlar dəlidir. Məmurlar bu formuladan istifadə edib özlərini sudan quru çıxarmağa cəhd edir. Cəmiyyət bununla günahı boynundan atır: ”İntihar edənlərin 80 faizi tamamilə sağlam adamlardır. Cəmi 15 faiz ruhi xəstə olur. Tibdə, psixiatriyada bu həmişə belə olub. İntihar ən çox psixi sağlam adamlara xarakterikdir.

Tarixin müəyyən dönəmlərində bir çox ölkələrdə müəyyən tarixi hadisələr baş verəndə, ciddi dəyişiklik olanda silsilə qətl hadisələri, intiharlar artır.

Cəmiyyət bunları ört-basdır etmək istəyir, çünki anormal hadisələr ölkənin imicini korlayır. İnsanı intihara əl atmasına səbəb olduğu vəziyyətdən çıxış yolunu görməməsidir. İmkanlı, vəzifəli, kifayət qədər statuslu insanlar da intihar edəcək. Son zamanlar polislər, həkimlər, gömrük işçilərindən özünü öldürənlər olur”.

Psixiatrın sözlərinə görə, hazırda Azərbaycanda intiharların artmasının əsas səbəblərindən biri ümidsizlik, narkotik maddələrin həddən artıq geniş yayılması, 5G qüllələridir: ”Kim inanmır, özü bilər. Dünyanın bütün ölkələrində müxtəlif nöqtələrdə 5G qüllələri quraşdırılıb. Bu qüllələr elə güclü radiasiya, şüalanma yayır ki, beyinə təsir edir. İnsanın halı dəyişir. Baş ağrıları, kəllədaxili təzyiq artır, damarların spazmı, ensefelopatiya, psixi pozğunluqlar yaranır. Ağır dərəcəli isterik vəziyyətlər, insanlarda intihara meyillik yaradır. Bunu Amerika alimləri hələ 10 il əvvəl sübut ediblər. ABŞ ştatlarında 4G qüllələri quraşdırılıb. Alimlər aşkar edib ki, harda ki, bu qüllələr quraşdırılıb, insanlar arasında psixonevroloji patalogiyalar artıb, intiharlar çoxalıb. Ona görə elm adamları bu qüllələrə qarşı çıxıblar.

**”Sağlam Cəmiyyət” Hərəkatının eksperti, sosioloq Elçin Bayramlının ”Şərq”ə açıqlamasına görə, həkimin dediklərinin çoxu elmi faktlarla sübut olunur. Texnologiyanın sürətli inkişafı özü ilə komfortla yanaşı, ciddi problemlər də gətirir:**

> Texnologiya inkişaf etdikcə ətrafımızı müxtəlif tezlikli radiodalğalarla dolu şüa okeanı bürüyür və bundan hüceyrələrimiz zərər görür

”Mən bu texnologiya üzrə mütəxəssis olmadığımdan texniki tərəflərini deyə bilmərəm, amma ümumi şəkildə hamıya aydındır ki, elektron cihazların çoxalması və elektromaqnit sahənin güclənməsi insanın sağlamlığına zərər vurur. 5G texnologiyası da onlardan biridir. Bu haqda onlarla elmi araşdırma aparılıb və bir çoxunda 5G dalğalarının insanlara, heyvanlara və bitkilərə zərər verdiyi sübut olunub. Təxminən 2 il qabaq dünyanın aparıcı 2000 elm xadimi və 1400 həkiminin iştirakı ilə aparılmış tədqiqatların nəticəsi olaraq bildirildi ki, 5G texnologiyası insan orqanizmi üçün təhlükəlidir. 2017-ci ildə müxtəlif ölkələrdən xeyli sayda alimlərin BMT-yə birgə müraciəti oldu. Orada deyilirdi ki, insan sağlamlığına təsiri sınaqdan keçirilməmiş texnologiyaların tətbiqi, elektromaqnit və radio dalğaları ilə işləyən cihazların çoxalması canlı aləmə sarsıdıcı zərbələr vurur. Məsələn, dünyada böcək populyasiyasının 80 faiz azalmasında elektormaqnit sahəsinin çoxalmasının təsiri olduğu elmi şəkildə sübut olunur. O cümlədən quşların kütləvi ölümləri, arıların qırılması kimi faktlar da çoxdur”.

*Sosioloqun sözlərinə görə, 3G və 4G-dən fərqli olaraq 5G-nin elektromaqnit hissəciklərinin zərəri daha çoxdur. Bir çox alimlər deyir ki, bu hissəciklər insanlarda xərçəng xəstəliyi, genetik pozulma, stres, reproduktiv sistemin dəyişikliyi, yaddaş problemi yaradır:* ”5G-də 4G-dən 100 qat daha sürətli data ötürülməsi mümkün olacaq. Bu texnologiyada hər 100-150 metrdən güclü baza ötürücü stansiyaları qurulmalıdır. 5G dalğaları aşağı tezliklərdə və hər tərəfi bürümüş çox sıx ötürücü qurğularla yayımlanır. İddialara görə, insanın hüceyrə vibrasiyası ilə eyni tezlikdə. Və bu da bədəndə oksigen atomlarının udulmasına və məhv olmasına gətirib çıxara bilər. Yəni ionlaşdırıcı radiasiyaya yol aça bilər ki, bunun da xərçəngə səbəb olduğu iddia edilir. Çox sayda nüfuzlu alimlər və texnologiya mühəndisləri bu tezliklərdə olan dalğaların genlərə təsir etdiyini və mutasiyaya səbəb olacağını deyirlər. Təsəvvür edirsinizmi, hazırda internetə bağlı 50 milyarddan artıq cihaz var. Əşyaların interneti 5G üzərinə qurulacaq, burada insan beyni də bir elektronik əşya kimi qəbul edilir. Bu, verilən frekanslardan asılı olaraq, stresə də, intihara da gətirib çıxara bilər. Yüksək frekanslı radiodalğalar ümumiyyətlə orqanizmə zərərlidir. Bu gün istifadə etdiyimiz smartfonlar və sair elektron cihazların zərəri var”.

*E.Bayramlının fikrincə, texnologiya inkişaf etdikcə ətrafımızı müxtəlif tezlikli radiodalğalarla dolu şüa okeanı bürüyür və bundan hüceyrələrimiz zərər görür:* ”Təkcə Amerikada Elon Maskın rəhbərlik etdiyi şirkət kosmosa 40 min peyk çıxarmağa başlayıb və planetin aşağı orbitini bürüyəcək kiçik peyklərlə dünyanın həm kv.sm-ə sürətli internet ötürəcəyini deyir. Bunun insanlara və digər canlılara zərəri olmaya bilərmi? Bir sıra ölkələr 5G texnologiyalarının istifadəsinin dayandırılması barədə beynəlxalq çağırışa qoşularaq müvafiq sənədi imzalayıb. Hazırda bəzi ölkələrdə 5G-nin tətbiqinə başlanılıb. 6G və 7G texnologiyaları üzərində iş gedir. 6G-də baza stansiyaları insanların özü olacaq. Yəni belə çıxır ki, bildiyiniz biorobota çevriləcəyik. Hesab edirəm ki, canlı aləmə nə qədər zərərli olursa olsun, texnologiyaların inkişafını dayandırmaq mümkün olmayacaq. Çünki dünya elm və texnologiyası əlində olan mərkəzlərin dərdi insanların sağlamlığı deyil, tamam başqa məqsədlərdir. Məhz bu səbəbdən zərərsiz texnologiyaların inkişafı əngəllənir, zərərli texnologiyalar isə geniş tətbiq olunur.

5G təbii həyatdan virtual reallığa, elektronik dünyaya keçidin ilk böyük addımıdır. Ağlagəlməz yeni imkanlar yaranacaq, lakin insanlığın təbii həyatı sona çatmış olacaq”.

**Şəymən**

# Toyuq ən riskli qidadır

## Çarpaz çirklənmə nəticəsində hər gün zəhərlənmələr baş verir

**Son günlər ölkədə zəhərlənmə halları xeyli artıb. Havanın temperaturu çox olduqda müəyyən patogen mikrobların da inkişafının çoxalma sürəti artır. Buna görə də qida zəhərlənmələrinə daha çox rast gəlinir. Əsas zəhərlənmə səbəbləri qida məhsullarının düzgün saxlanılmamasından baş verir.**

Soyuq zəncirin pozulması, istehsal tarixi ötmüş malların qəbulu, dondurma, müəyyən ət məhsulları, məsələn, dönər kimi qidaların yay zamanı saxlanılma müddəti çox az olur.

**Qida üzrə baş mütəxəssis Ağa Salamovun sözlərinə görə, zəhərlənmələrin əsas səbəbi, kənd təsərrüfatı məhsullarına həddən artıq dərman vurulması, həmçinin emal zamanı keyfiyyətsiz hazırlanmasıdır.** Görünən odur ki, zəhərlənmə halları əsasən mikrobioloji çirklənmədən baş verir. Bu, kimyəvi zəhərlənmədən də ola bilər.

Mütəxəssisin sözlərinə görə, satışda nitrat səviyyəsi çox yüksək olan qarpızlar var. Bu qarpızları becərəndə pestisidlər vurulur, çox məhsul götürmək üçün normadan artıq müəyyən kimyəvi maddələrdən istifadə olunur: ”Təbii ki, hava istidir, insanlar qarpıza daha çox üstünlük verir. Bir çox zəhərlənmə halları bundan olur. Tək qarpızda deyil, soğanda, kartofda, digər tərəvəzlərdə də nitrat çoxdur. Amma mikrobioloji çirklənmədən də bioloji zəhərlənmə baş verir. Çünki qida məhsullarının ictimai iaşə müəssisələrinə girişi kortəbii şəkildə həyata keçirilir. Bu məhsulun mənşəyi bilinmir. Yaxud qida zəncirində qırılma baş verib. O hansı maşında daşınıb, neçə saat Günəşin altında açıq havada o ərzaqlar qalıb. Otaqda nə qədər qalıb, soyuducuya yerləşdrilibmi, ya yox?! Bunlar hamısı sual altındadır. Çarpaz çirklənmə nəticəsində insanlar zəhərlənə bilər. Çox təəssüf ki, onların üzərində nəzarət çox azdır. Aidiyyəti orqanlar ictimai iaşə müəssisələrini başlı-başına buraxıb”.



> “Təəssüf ki, onların üzərində nəzarət çox azdır. Aidiyyəti orqanlar ictimai iaşə müəssisələrini başlı-başına buraxıb”

**Ekspert deyir ki, zülal tərkibli riskli qidalar var, toyuq, ət, balıq, süd məhsulları otaq temperaturunda çox qala bilməz:** ”Eyni zamanda şorbaların tərkibində ət, toyuq, balıq var, bunlar soyudulub, sonra soyuducuya qoyulmalıdır. İsidilmə prosesi də düzgün olmalıdır. Hər bir ictimai iaşə müəssisəsində bir mütəxəssis olmalı, nəzarət etməlidir. Məsələn, toyuq ən riskli qidadır. Salmonella bakteriyasından zəngin olan ətdir. Hava keçirməyən salafanlara doldururlar, maşınlara qoyurlar, orada boğulur, gətirilir ictimai iaşə müəssisəsinə, saatlarla saxlayırlar, zəhərlənmə də belə baş verir. Harada qida varsa, orada nəzarət olmalıdır”.

**Şəymən**

# "Nar" Azərbaycanda ilk üztanıma texnologiyalı eSIM xidmətini təqdim etdi

**”Nar” mobil operatorlar arasında ilk üztanıma texnologiyasının tətbiq edildiyi eSIM xidmətini təqdim etdi.**

Bu xidmət sayəsində həm mövcud, həm də yeni abunəçilər eSIM nömrəni heç yerə getmədən onlayn şəkildə əldə edə bilərlər. eSIM nömrəsini əldə etmək üçün esim.nar.az səhifəsində lazım olan məlumatları daxil edib QR kod vasitəsilə xidməti aktivləşdirə bilərsiniz.




Qeyd edək ki, SIM kartlarla müqayisədə bu xidmətin bir çox üstünlükləri var. eSIM xidməti nömrənin zədələnməsi, itməsi və ya dublikatı üçün müştəri xidmətlərinə yaxınlaşma zəruriyyətini aradan qaldırır, eləcə də telefonda əlavə nömrənin istifadəsinə şərait yaradır.

eSIM haqqında daha ətraflı məlumatı esim.nar.az səhifəsindən əldə edə bilərsiniz.

**”Nar” haqqında:**

*”Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. ”Nar” son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.*

# Azercell-dən açıqlama

**Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Kompüter İnsidentlərinə Qarşı Mübarizə Mərkəzinin məlumatına görə, Azərbaycanın elektron informasiya resurslarına qarşı genişmiqyaslı kiberhücumlar hazırlanıb.**

Müvafiq dövlət qurumunun bu xəbərdarlığını nəzərə alaraq, ”Azercell Telekom” MMC Respublikamızın hüdudlarından kənarda ”Azercell” sistemlərinə qoşulmaları müvəqqəti olaraq məhdudlaşdırır. Bu səbəbdən də xaricdə olan Azercell abunəçiləri ”Kabinetim” proqramına, internet səhifəmizə və digər elektron resurslarımıza rominq üzərindən mobil internet vasitəsilə qoşula biləcəklər.

# “Mən də ölmək istəyirəm"

## Xatun Əliyeva bir müddət əvvəl dünyasını dəyişən stilist qardaşı Balaşdan danışıb



**“Evdəkilər Balaşın məzarının üstünə getməyə qoymurlar. Həmişə yanımda kimsə olur. Deyirəm, qoyun tək qalım. Hər zaman kimsə yanımda olur”.**

Bu sözləri müğənni Xatun Əliyeva ”O üz” proqramında deyib. Sənətçi bir müddət əvvəl dünyasını dəyişən stilist qardaşı Balaşdan danışıb: ”Bir dəfə sürücümlə getdim, dedim, məni tək qoy. Elə bil hər yerdən mənə baxırdı. Dualar oxudum. Hiss etdim onu, orada idi. Bəlkə, o dünya bu dünyadan da gözəldir. Allah aparıb onu öz yanına. Hərdən deyirlər, filankəs xəstələnib. Allah ən xeyirli ölüm nəsib etsin. İnsan bir-birinə dua edəndə ona ən xeyirli ölüm arzu etməlidir. Mən də ölmək istəyirəm, amma onu ancaq Allah bilir. Atam-anam deyirdi, ilinə qədər ölmək istəyirik. Deyirəm, kimsə bunu istəyir, amma ölürük ki, yox”.

**Elanlar**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 21.02. 2022-ci ildə İmanov Qəzənfər Xəlil oğluna verilmiş v? ona məxsus ”FROM-LAKE” Məhdud Məsuliyyətli Cəmiyyətin (Dövlət qeydiyyat № (VÖEN) 2007266051, çıxarışın №-si 2201020013819400) möhürü itdiyi üçün etibarsız sayılır.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 18.02. 2021-ci ildə İmanov Qəzənfər Xəlil oğluna verilmiş v? ona məxsus ”XƏZƏR-BUXTA 021” Məhdud Məsuliyyətli Cəmiyyətin (Dövlət qeydiyyat № (VÖEN) 2007264901) möhürü itdiyi üçün etibarsız sayılır.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 21.02. 2022-ci ildə İmanov Qəzənfər Xəlil oğluna verilmiş v? ona məxsus ”S.N NATURAL” Məhdud Məsuliyyətli Cəmiyyətin (Dövlət qeydiyyat № (VÖEN) 2007265951, çıxarışın №-si 2201020013849500) möhürü itdiyi üçün etibarsız sayılır.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 21.02. 2022-ci ildə İmanov Qəzənfər Xəlil oğluna verilmiş v? ona məxsus ”LOUND-S QRUP” Məhdud Məsuliyyətli Cəmiyyətin (Dövlət qeydiyyat № (VÖEN) 2007266181) möhürü itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2249



## İtaliyada ikinci Dünya müharibəsindən qalma bomba tapıldı



**İtaliya son 70 ilin ən quraqlıq günlərini yaşayır. Ölkənin ən uzun çayı olan Po qurumağa başlayıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, sular çəkilən kimi Mantua şəhərinin Borqo Virgilio kəndi yaxınlığında İkinci Dünya müharibəsindən qalma Amerika istehsalı olan bir bomba üzə çıxıb. 450 kiloqramlıq bomba balıqçılar tərəfindən tapılıb. Səlahiyyətlilər bombanın əvvəlcə yerində məhv edilməsini planlaşdırıblar. Bu səbəbdən 3 minə yaxın insan təxliyə edilib. Lakin ekspertlər bombanın daşına biləcəyinə qərar verdikdən sonra əməliyyat başlayıb. Bomba yük maşını ilə karxanaya aparılaraq partladılıb.

**Turan**

## "Fidel Kastro" obrazını canlandıracaq

### Bu qərar izləyicilərin narazılığa səbəb olub



**Aktyor Ceyms Frankonun yeni layihəsi bəlli olub.**

Axşam.az xəbər verir ki, aktyor Kuba liderinin qeyri-qanuni qızı Alina Fernandes haqqında çəkilən filmində "Fidel Kastro" obrazını canlandıracaq. Lakin bu qərar izləyicilərin narazılığa səbəb olub. Bəziləri Frankonun ispan olmadığı təqdirdə rola təsdiqlənməsini bəyənməyib.

Hətta kolumbiyalı-amerikalı aktyor Con Leguizamo sosial şəbəkələrdə bununla bağlı yazı dərc edərək filmi boykot etməyə çağırıb:

"Necə olur ki, bu, hələ də davam edir? Hollivud bizi istisna edir, amma hekayələrimizi də oğurlayır. Filmi boykot edək! Franko ilə problemim yoxdur, amma o ispan deyil!"

Leguizamonun etirazına digər media nümayəndələri, o cümlədən həmkarı Jeff Torres və yazıçı Lilliam Rivera da qoşulub.



# ABŞ-da Putinə heykəl qoyulub

### Bu heykəl müharibədən əziyyət çəkən uşaqların cəsarətini vurğulayır





**ABŞ-ın Nyu-York şəhərindəki Mərkəzi Parkda Rusiya Prezidenti Vladimir Putinin heykəli qoyulub. Tamamilə qırmızı olan heykəl miniatür tankın üstündə oturan Putini təsvir edir. Daha əvvəl Fransada qırmızı rəngli uşaq əsgəri heykəlləndirən rəssam "müharibənin absurdluğunu vurğulamaq" istədiyini deyib.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, miniatür döyüş tankının üstündə oturan Putini təsvir edən parlaq qırmızı heykəl fransız rəssamı Ceyms Kolomina tərəfindən hazırlanıb.

"Bu heykəl müharibənin absurdluğunu pisləmək və başqaları tərəfindən törədilən zorakı vəziyyətlərlə üzləşən uşaqların cəsarətini vurğulamaq məqsədi daşıyır" deyə Kolomina İnstaqram hesabında yazıb.

Kolomina, çox vaxt gizli şəkildə ictimai yerlərdə yerləşdirilən parlaq qırmızı küçə heykəlləri ilə tanınır.

Keçən aprel ayında rəssam Fransada müharibə əleyhinə mesajlı daha bir heykəl sərgiləmişdi.

Fransanın cənub-qərbində, Tuluzada güləçevrilən tüfəngli uşaq əsgərin heykəli də bir vaxtlar gündəm olub.

**Turan**

## Tom Kruzun yeni filmi "Titanik"i qabaqladı

### Onun yeni layihəsi 662 milyon dollar qazanaraq reytinqdə yeddinci yerdədir



**"Top Gun: Maverick" filmi ABŞ-ın kinoprakatında ən çox gəlir gətirən filmlər siyahısında "Titanik" dramını geridə qoyub.**

Oxu.az əbər verir ki, hazırda Tom Kruzun yeni layihəsi daxili bazarda 662 milyon dollar qazanaraq reytinqdə yeddinci yerdədir.

Eyni zamanda, dünyanın ən çox gəlir gətirən filmləri siyahısında "Top Gun: Maverick" hələ də 1,35 milyard dollar nəticə ilə 13-cü sıradadır.

Layihənin elan edilmiş büdcəsi 140 milyon dollardır.

Ekşn filminin premyerası mayın sonunda baş tutub.

*Qeyd edək ki, "Top Gun: Maverick" Tom Kruzun karyerasında ən çox gəlir gətirən filmdir.*

## 76 yaşlı qadın boksçu görənləri təəccübləndirdi

### Naciyə xanım öz qətiyyəti ilə bir çoxlarına örnək olub



**Türkiyədə 76 yaşlı qadın boksçu görənləri təəccübləndirib.**

Oxu.az xəbər verir ki, Naciyə xanım öz qətiyyəti ilə bir çoxlarına örnək olub.

Əsl adı Nensi Vanderstraeten olan adın 44 il əvvəl Belçikadan gələrək Türkiyədə məskunlaşıb və Naciyə adını qəbul edib.

O, 9 il əvvəl keçirdiyi Parkinson xəstəliyinin inkişafının qarşısını almaq üçün artıq 4 ildir ki, boksla məşğul olur.

## Su qıtlığı problemlər yaradıb

### Britaniya sakinlərindən yuyunma vaxtını azaltmaq xahiş olundu



**Britaniyalılar su qıtlığının təsirlərini azaltmaq üçün duşda keçirdikləri vaxtı ən azı bir dəqiqə azaltmalıdırlar.**

Hökumət proqramı çərçivəsində krallığın hər bir sakini 2050-ci ilə qədər gündəlik su istifadəsini 25 faiz (gündə 145 litrdən 110 litrə qədər) azaltmalıdır. Mütəxəssislərin fikrincə, 25 ildən sonra Britaniyanın öz əhalisini təmin etmək üçün gündə əlavə 4 milyard litr suya ehtiyacı olacaq.

Bu ehtiyacı nəzərə alaraq, ölkədə 1992-ci ildən bəri ilk dəfə su anbarı tikmək qərara alınıb. Tikintinin 2029-cu ilə qədər tamamlanacağı gözlənilir.



## 25 il sonra gələn dəhşətli etiraf!

### Əvvəlcə ərini, sonra qızını öldürərək bir-birinin üstünə basdırıb

**Türkiyənin Kahramanmaraş şəhərində bir evin bağçasında aparılan və arxeoloqların da iştirak etdiyi qazıntıda ata və qızının meyitləri aşkar edilib. H.T.-nin (75) 1997-ci ildə namus məsələsində mübahisə etdiyi ərini və 3 il sonra qızını öldürərək evin bağçasında üst-üstə basdırdığı müəyyən edilib. Cinayətini etiraf edərək meyitlərin yerini göstərən H.T. və oğlu da daxil olmaqla 6 nəfər saxlanılıb.**

2015-ci ildə Kahramanmaraş Polis İdarəsinə müraciət edən bir qız anası Z.T.-nin yoxa çıxdığını deyib və nənəsi H.T.-dən "Anam haradadır?" soruşduqda Almaniyaya getdiyini deyib, amma araşdırmalarında bir iz tapa bilməyib. Polis qrupları Z.T.-nin izinə rast gələ bilməyib.

Polis, üstü açılmayan cinayətlərin işıqlandırılması və itkin düşənlərin tapılması istiqamətində başladılan işlər çərçivəsində 4 ay əvvəl, 7 il əvvəl itkin düşmüş şəxslərlə bağlı müraciəti edilən Z.T.-nin faylını rəfdən götürüb, araşdırmağa başlayıb. İtkin düşən qadını tapmaq üçün Asayiş Şöbə Müdirliyi nəzdində xüsusi qrup yaradılıb və qızın ifadəsinə yenidən müraciət edilib. İtkin düşən Z.T.-nin adı açıqlanmayan qızı anasının Almaniyaya getdiyinə inanmadığını və öldürülə biləcəyini deyib. Xüsusi qrupun araşdırmalarında Z.T.-nin atası A.T.-nin də itkin düşdüyü müəyyən edilib. Ata və qızın məişət cinayətinin qurbanı ola biləcəyini qiymətləndirən xüsusi qrup, itkin düşmüş şəxslərin öldürüldüyünü təyin edib.

Xüsusi qrup, A.T.-nin həyat yoldaşı H.T. və oğlu da daxil olmaqla 6 nəfər nəzarətə götürülüb. Polis bölməsinə aparılan



şübhəlilərdən H.T. dindirilərkən törətdiyi cinayəti etiraf edib. 1997-ci ildə şərəf məsələsinə görə A.T. onunla mübahisə etdiyini, mübahisənin sonunda ərini ov tüfəngi ilə öldürərək evin bağçasında basdırdığını, 3 il sonra, 2000-ci ildə isə qızı Z.T.-ni yeməyinə qatdığı zəhərlə öldürdüyünü bildirib. Qatil qızının cəsədini də ərinin cəsədinin üstünə basdırıb. Daha sonra evə aparılan H.T. ərini və qızını harada basdırdığını prokuror və polisə göstərib.

Tikinti avadanlığı ilə başlayan qazıntılara arxeoloqlar da qatılıb. Arxeoloqlar sanki tarixi əsərlər axtarırmış kimi qazaraq əvvəlcə Z.T.-nin, aşağıda isə atası A.T.-nin sümüklərini tapıblar. Nəzarətə alınan 6 nəfərin dindirilməsi davam edir.

**Turan**

## Selena Qomez ərə getmək istəyir

### "Ümid edirəm ki, ailə qura və ana ola biləcəyəm"



**Məşhur müğənni Selena Qomez "Giving Back Generation" podkastının növbəti qonağı olub.**

Axşam.az xəbər verir ki, ifaçı müsahibəsi əsnasında ailə həyatı qurmaq istədiyini bildirib:

"Ümid edirəm ki, ailə qura və ana ola biləcəyəm. Çünki bütün bunlardan sonda bezəcəyəm. Həyatımın çox hissəsini xeyriyyəçiliyə həsr edəcəyəm".

*Qeyd edək ki, bir müddət əvvəl Selena italyan prodüser Andrea Yervolino ilə görüntülənib. Cütlüyün münasibətdə olduğu iddia edilib.*

## Buraya necə gəldiyini heç kim bilmir!

### Tərk edilmiş "Boeing-737"nin sirri hələ açılmayıb





**Bali adasında böyük bir sahənin ortasında dayanan "Boeing 737" təyyarəsinin sirrini açmaq mümkün deyil. Təyyarə böyük maraq doğursa da, onun bura necə gəldiyini heç kim bilmir.**

Təyyarə böyük magistral yolun yanında dayanır və onun yaxınlığında heç bir hava limanı yoxdur.

Bir çox səyahətçilər təyyarənin oraya necə gəldiyi barədə fərziyyələr yürüdürlər. Böyük təyyarə şossenin yaxınlığındakı əhəng daşı karxanasında, turizm məkanı olan Pandava sahillərindən çox da uzaq olmayan yerdə durur.

Bəzi baliyalılar təyyarənin orada restoran qurmaq istəyən iddialı bir sahibkar tərəfindən qaldırıldığını irəli sürürlər.

Kimisi isə böyük magistral yolun yaxınlığında tapılan "737"nin hissələrinin buraya gətirildiyi və turistik məkana çevrilmək üçün yerində yenidən yığıldığını deyir.

**Turan**